

## Prezident və birinci xanım Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olub...*

Səh.2


# UNİKAL

№18 (2103) 27 may 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.org   unikal-1@mail.ru




## Ziya Məmmədovun 45 milyonluq yol yalanı...

### Sabiq nazir yarım milyard manatdan çox dövlət vəsaitini xərclədiyi Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yoluna görə sorğu-sual ediləcəkmi?

*Bir neçə gün öncə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məlumat yaydı ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda yenidən əsaslı təmir-bərpa işlərinə başlanılır. Təmir-bərpa işləri magistral yolun 88-ci kilometrindən başlayaraq Bakı şəhəri istiqamətində aparılacaq: "Avtomobil yolunda hərəkət intensivliyi nəzərə alınaraq işlər hissə-hissə aparılacaq. İşlərin aparıldığı ərazidə avtonəqliyyat vasitələrinin hərəkəti tam olaraq məhdudlaşdırılacaq. Təmir-bərpa işləri aparılan müddət ərzində əks istiqamət üzrə avtonəqliyyat vasitələrinin ikitərəfli hərəkəti təmin ediləcək.*

Səh.5



Səh.3

## Monopolistlərin bahalaşma oyunu...

## "Ermənistan danışıqlardan qaça bilməyəcək"



*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Unikal"a müsahibə verib. Deputat Prezident İlham Əliyevin Brüssel səfərindən, Ermənistandakı aksiyalardan, struktur islahatları və digər məsələlərdən danışıb.*

Səh.4

## Əbülfəs Qarayevin korrupsiya "kinosu"...



*Milli Məclisin iki gün önçəki keçirilən iclasında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev kino sahəsinə ayrılan 5-6 milyon manatla yalnız cizgi filmi çəkməyin mümkünlüyünü vurğulayıb.*

Səh.8

## Səlim Müslümov ev dustaqlığına buraxıldı



*Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov azadlığa buraxılıb. "Unikal" xəbər verir ki, bu barədə qərar Səbail Rayon Məhkəməsində elan olunub. Məhkəmənin qərarı ilə onun barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilərək ev dustaqlığı qətimkan tədbiri ilə əvəz edilib.*

Səh.3

# "Evlilik padşahlıqdır" - Sevda Yahyayeva



***"Subaylıq sultanlıqdır deyirlər, amma evlilik padşahlıqdır. Lakin evlənmək xətrinə yox, məsləhət görürəm ki, həqiqətən ürəklərincə olan insanı sevib-seçib ailə qursunlar. Ailə qurmaq xətrinə bunu etməsinlər".***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri müğənni Sevda Yahyayeva "MTV maqazin"ə açıqlamasında deyib. O, həyat yoldaşı Zakir Bayramovla olan evliliyindən danışaraq aralarında qısqanclığın olmadığını bildirib:

"Sevdiyim işlə məşğul oluram, baxmayaraq ki, ailəm böyüyüb, onlar da mənə dəstəkdir. Ona görə də nə çətinliyim olacaq ki? Hər birimiz öz işimizlə məşğuluq. Həmişə necə indi də elə, səhnədəyəm. Qısqanmaq məndə də var, amma hər şey qədərində. Qısqanmır o mənadakı hər şey öz əndazəsindədir. Elə bir yaşdayıq ki, atdığımız addımı, dediyimiz sözü də bilərək edirik. Ona görə də qısqanmağa heç bir səbəb yoxdur. Nəyə qısqanaq, 15 yaşımız yoxdur. Bu haqda danışmaq istəmirəm, çünki xoşbəxt həyatımın ən gözəl günlərini yaşayıram. Özümü buna köklənmişəm ki, hər şey yaxşıdır və bundan da yaxşı olacaq".

S.Yahyayeva uşaqla bağlı düşüncələrini "Niyə də yox, o da Allah istəyəndə olacaq" sözləri ilə cavablayıb.

# Vasif Məhərrəmli efirdə itirdiyi həyat yoldaşından danışıb ağladı



***Əməkdar artist Vasif Məhərrəmli "1 dəqiqə" verilişində qonaq olub.***

İfaçı ilk həyat yoldaşının vəfatından danışaraq kövrəlib. O, bunun həyatının ən ağır günü olduğunu bildirib: "Övladım yaş yarım olarkən həyat yoldaşımı itirməyim həyatımın ən ağır günü oldu. Ondan o tərəf mənim ağır günüm yoxdur. 2 il sonra atamı itirdim. O da mənim üçün çox ağır itki idi. Amma bir el deyimi var: Atalar övladlarının çiynində həyatdan getsin. Bütün analara, atalar, özüm də onun içində olmuşam, arzulayıram ki, bir ömür sürüb, amma gecindən təbii ki, övladlarının, oğullarının çiynində bu dünyadan köçsünlər".

Aparıcı Zaur Nəbioğlu V.Məhərrəmlinin həyat yoldaşı dünyasını dəyişərkən bətnində 7 aylıq körpəsinin olduğunu açıqlayıb.

"Bəlkə məni qınayarlar, amma o anda bunu düşünmürsən. Bətndə olanı o qədər düşünmürsən, nəinki bir gəncin ömrü, həyatı. Çox ağırdır. Zaman-zaman mənə çox şər-böhtan atıldı, ünvanıma mənə layiq olmayan sözlər deyildi. Hamısına sinə gəldim bu həyatda. Bilmirəm, ətrafım deyir ki, güclü insansan. Ola bilsin gücüm ondadır ki, sinə gəlmişəm və o imtahanlardan üzüağ çıxmışam. Nə qədər böhtan atıldısa, iki şeyə dəyə bilmədilər məndə, onun yanından yel olub ötə bilmədilər: Bir kişiliyimə, bir də sənətimə. Bu da mənim üçün ən önəmlisidir" deyə, müğənni əlavə edib.

# "Həmin fotolarımı pulla sildirə bilmirəm" - Xuraman Şuşalı

***Müğənni Xuraman Şuşalı hicabsız görüntülərini internetdən sildirə bilmədiyini deyib.***

Sənətçi bu haqda "Həmin Zaur" proqramında deyib. O bildirib ki, bunun üçün nə qədər çalışsa da, nail ola bilməyib: "Hicabsız fotolarımı sildirirəm. Sildirə bildiklərimi sildirdim. Amma qalanlar qalıb. Pulla da olunacaq iş deyil. Pulu ödəsəm, başqası yükləyəcək və buna bines kimi baxacaqlar. Keçmiş keçmişdə qaldı. Müğənniyəm, səhnə bunu tələb edir".

# "Adamı yıxan elə ən yaxınıdır" - Xatun Əliyeva

***"Adamı yıxan elə ən yaxınıdır. Hamını pisləyib, özünü yaxşı göstərəndir".***

"Unikal" olay-a istinadən xəbər verir ki, bu sözləri instaqramda müğənni Xatun Əliyeva paylaşıb.

O ad çəkmədən kiməsə söz atıb: "Ən dəhşətlisi də odur ki, sənin çörəyini yeyə-yeyə şəraitini qurub, sənin pis gününü gözləyən və buna düşməndən çox sevinən imiş".



Qeyd edək ki, bir neçə gün əvvəl müğənni Əminə Şirinqızı "Şourum" verilişində Xatunu tənqid etmişdi. Onun "Ən gözəl qadın" mahnısına irad bildirmiş, sonra "Oxumaq Xatunluq deyil" açıqlamasını vermişdi.

Onu da bildirək ki, OLAY Ə. Şirinqızının sözlərinə cavab almaq üçün bu gün Xatunla əlaqə saxlayıb. İfaçının köməkçisi sualımızı ona çatdıracağını söyləsə də, heç bir açıqlama verilməyib.

# Lətafətdən Cavanşir Məmmədova: "Sübut edərəm ki, botoksunuz var"

***Aparıcı Lətafət Ələkbərova Əməkdar artist Cavanşir Məmmədovla bağlı yeni iddia irəli sürüb.***

O, "Üzümdə botoks yoxdur" söyləyən sənətçiyə əksini sübut etməyə hazır olduğunu bildirib. Bu barədə aparıcı "Magazin plus"a müsahibəsində danışıb: "Cavanşir müəllim bizim verilişimizdə qonaq olub. İşıqlar onun üzünə düşəndə aydın bilinirdi ki, botoksu var. Əlim üzümdə qaldı, niyə deyirsiniz yoxdur? Etmisinizsə, deyin, burada nə var ki? Niyə gizlədirsiniz? Kosmetoloquma aparacağam, sübüt edəcək ki, üzündə botoks var. Hazıram, gəlsin. İki min manatı da alacağam".

Aparıcı şou-biznesdə üzündə botoks olan digər kişi sənətçilərin adlarını da açıqlayıb: "Nadir Qafarzadə, Vasif Məhərrəmli, Niyam Salami, Kərimdə də botoks var. Hətta Kərim bu yaxınlarda kök hüceyrə vasitəsiylə özünü 10 yaş cavanlaşdırıb".

Qeyd edək ki, C.Məmmədov ötən həftə üzündə botoks olmadığını və əksini sübut edən şəxsə 2 min manat verəcəyini söyləmişdi.



# Qarabağ Dirçəliş Fondu ilə Diaspor Komitəsi memorandum imzaladı

***Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Qarabağ Dirçəliş Fondu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.***

"Unikal" xəbər verir ki, memorandumu Diasporla iş üzrə Dövlət Komitəsinin (DİSK) sədri Fuad Muradov və Qarabağ Dirçəliş Fondunun (QDF) İdarə Heyətinin sədri Rəhman Hacıyev imzalayıblar.

Memorandumun əsas məqsədi əməkdaşlıq çərçivəsində birgə layihələr və tədbirlər həyata keçirməklə, işğaldan azad edilmiş ərazilərin yüksək rifaha malik regiona çevrilməsinə töhfə verməkdir. Sənəd xaricdə yaşayan azərbaycanlılar, diaspor təşkilatları və digər xalqların nümayəndələri tərəfindən erməni işğalı nəticəsində Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən mədəni irsə, təbii sərvətlər və bioloji tərəfdaşlığa vurulan zərər haqqında dünya ictimaiyyətinin məlumatlandırılması, Qarabağda həyata keçirilən tədbirlərin və investisiya potensialının dəstəklənməsi məqsədilə ianəçiliyi, dövlət-özəl tərəfdaşlığının təsviq edilməsini əhatə edib.

Tədbirdə çıxış edən Komitə sədri xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının Qarabağda aparılan quruculuq işləri və Qarabağ Dirçəliş Fondunun fəaliyyəti barədə mütəmadi məlumatlandırılmasının vacibliyini vurğulayıb. Qeyd edilib ki, memorandumun əhatə etdiyi fəaliyyət istiqaməti Dünya Azərbaycanlılarının Şuşada keçirilmiş V Qurultayı zamanı müəyyənləşdirilən strategiyada da öz əksini tapıb. Təsadüfi deyil ki, Zəfər Qurultayının iki panelindən biri "Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri" mövzusuna həsr olunub.

Qarabağ Dirçəliş Fondunun fəaliyyətə başladığı ilk gündən DİDK-dan dəstək gördüyünü deyən R.Hacıyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən Zəfər Qurultayında iştirakını və tədbir iştirakçıları ilə təmaslarını məmnunluqla xatırlayıb, diaspor təşkilatlarının rəhbərlik etdiyi fondla səmərəli əməkdaşlığına ümidvar olduğunu bildirib. Görüşdə Rəhman Hacıyev Fondun ötən ilin yekunlarına dair, eyni zamanda cari fəaliyyəti barədə məlumat verib.

Sonra birgə əməkdaşlıq çərçivəsində görülməsi nəzərdə tutulan layihələr barədə ətraflı fikir mübadiləsi aparılıb. Tərəflər bu əməkdaşlığın işğaldan azad edilən ərazilərdə dayanıqlı məskunlaşmaya, əlverişli həyat şəraitinin yaradılmasına töhfə verəcəyinə əminliklərini ifadə ediblər.

# Əbülfəs Qarayevin korrupsiya "kinosu"...

## Yoxlamaların ortaya çıxardığı acı mənzərə - Sabiq nazir və kadrları milyonlarla manatı necə havaya sovurublar?

***Milli Məclisin iki gün öncəki keçirilən iclasında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev kino sahəsinə ayrılan 5-6 milyon manatla yalnız cizgi filmi çəkməyin mümkünlüyünü vurğulayıb.***

Buna cavab olaraq isə Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun səsləndirdiyi fikirlər bəzi insanlar tərəfindən birmənalı qarşılanmayıb. Belə ki, Palata sədri iclasda kino çəkilməsinə ayrılan vəsaitin artırılması təklifinə belə münasibət bildirib: "Rüfət müəllim kino çəkilməsinə vəsaitin artırılmasını təklif edir. Amma biz hesab edirik ki, kinoya ayrılan pulu yarı-yarıya kəsmək olar. Bu, indiki şəraitdə bizim fikrimizdir. Hesablama Palatasının rəyinin 121-ci səhifəsində kino çəkilməsinə ayrılan vəsaitlərin necə xərclənməsi barədə məlumatlar var".

Məsələ burasındadır ki, Hesablama Palatası tərəfindən dövlət sifarişi ilə filmlərin çəkilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinin auditinin nəticələrinə görə, kinonun normativ-hüquqi və iqtisadi bazasını təşkil edən aktların təkmilləşdirilməməsi və genişləndirilməməsi, o cümlədən 18 il əvvəl qəbul edilmiş qaydaların müasir tələblərə və çağırışlara cavab verməməsi artıq, eləcə də, bu sahədə çalışan yaradıcı heyətin tam əhatə olunmaması səbəbindən qaydalarda nəzərdə tutulmayan yaradıcı hallar üzrə qonorar ödənişlərinə səbəb olub.

Qeyd edilən sahə üzrə "dövlət sifarişi" anlayışının hüquqi aktlarda konkret təsbit olunmaması, eləcə də sifarişin çərçivəsinin və istiqamətlərinin müəyyənləşdirilməməsi bəzi hallarda vəsaitlərin təyinatının dəyişdirilməsinə, bir sıra hallarda isə filmlərin başa çatdırılmayaraq konservasiyası ilə nəticələnib, ssenarilərin və kino studiyalarının müsabiqə çərçivəsində seçilməsi ilə bağlı meyarların müəyyənləşdirilməməsi, komissiyanın fəaliyyətinin tənzimlənməsi ilə bağlı hər hansı bir qaydaların və ya hüquqi aktların mövcud olmaması son nəticədə vəsaitlərin "Kinematoqrafiya haqqında" qanuna əsasən kinematoqrafiyaya dövlət himayəsinin əsas formalarının, xüsusilə dövlət sifarişi əsasında çəkilən filmlərin istehsalının, yayımının və onların beynəlxalq kinofestivallara iştirakının, kinosalnamə çəkilişinin və dövlət film fondunun maliyyələşdirilməsi ilə bağlı istiqamətlərin tam əhatə olunmaması ilə nəticələnir.

Dövlət sifarişi ilə çəkilən filmlərin seçilmə meyarlarının müəyyən olunmaması və dövlət sifarişi ilə hazırlanan filmlərin smeta xərclərinin siyahısının təsdiq edilməməsi, habelə birgə (müştərək) film istehsalının və ümumiyyətlə kino iqtisadiyyatının tənzimlənməsi barədə normativ sənədlərin olmaması büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın və hesabatlılığın təmin edilməsinə, xərclərin uçotunun düzgün qurulmasına imkan verməyib, filmlərin çəkilişi ilə bağlı ayrılmış vəsaitlər üzərində hesabatlılığın və inzibatçılığın müəyyən edilməməsi səbəbindən bu vəsaitlərin studiyalar tərəfindən təyinatının dəyişdirilməsi, ümumiyyətlə, təsdiqedici sənədlərin təqdim olunmaması kimi halların yaranmasına da səbəb olub.



Bir sözlə, Hesablama Palatasının auditindən çıxan nəticə odur ki, Əbülfəs Qarayevin mədəniyyət naziri olduğu illərdə kinoya ayrılan dövlət vəsaiti də korrupsiya predmetinə çevrilib!

Bir az da dəqiqləşdirək - 2012-ci ilin dövlət büdcəsindən Azərbaycan kinosuna 7 milyon manat ayrılıb. Bundan sonra o vaxtkı Mədəniyyət və Turizm Nazirliyinin kino şöbəsinin müdiri Cahangir Məmmədov açıqlama verərək həmin vəsaitə bir neçə bədii və sənədli filmlərin istehsalının nəzərdə tutulduğunu demişdi. Aylar öncəki bir yazımızda da vurğuladığımız kimi, nəticə - sıfır!

Kinonun inkişafına dövlətin qayğısı təkcə büdcədən ayrılan vəsaitlərlə bitmirdi. "Azərbaycan Kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" çərçivəsində dövlət sifarişi ilə bədii, sənədli və cizgi filmlərinin istehsalı, xarici ölkələrdə saxlanan Azərbaycan milli filmlərinin nüsxələrinin ölkəyə gətirilməsi və s. üçün 6,5 milyon manat ayrılmışdı. Təkcə göstərilən iki məbləğ ümumilikdə təxminən 14 milyon manat edirdi. Nəticə? - Yenə də sıfır!

Qeyd edək ki, Mədəniyyət Nazirliyi xətti ilə Əbülfəs Qarayevin dövründə kino sahəsinə ayrılan vəsaitlərin taleyi ilə bağlı araşdırmalarda başqa maraqlı nüanslar da üzə çıxır. Məsələn, Professional Kinorejissorlar Gildiyasının rəhbəri, tanınmış kinorejissor-ssenarist Hüseyn Mehdiyev iki il öncə yerli KİV-ə açıqlamasında kinoya ayrılan dövlət vəsaitinin səmərəli şəkildə xərclənmədiyini qeyd eləmişdi. Sitat: "Vəsaitin necə xərcləndiyini artıq o zaman demək olar ki, bu sahədə hər şey qaydasında olsun, struktur formalaşdırılsın, qaydalar yaradılsın, xüsusi təşkilat olsun. Yəni bütün sistem işlək olduqdan sonra bu məsələni gündəmə gətirmək olar. İndi bu sistemin heç biri işləmir və hər şey başlı-başınadır..."

Göründüyü kimi, Əbülfəs Qarayevin Mədəniyyət naziri olduğu dövrdə kino sahəsinə ayrılan milyonlarla manatın qaranlıq taleyi ilə bağlı narahatlıqlar, giley-güzarlar dilə gətirilib. Ancaq sabiq nazir nədənsə həmin etirazları, tənqidləri, şikayətləri susqunluqla qarşılayıb. Heç vaxt bu istiqamətdə tənqidlərə münasibət bildirməyib. İndi isə nəinki medianın araşdırmaları, elə Hesablama Palatasının auditi də kinoya ayrılan dövlət vəsaitlərinin qeyri-şəffaf xərclədiyi, bu vəsaitlərin bir hissəsinin kimlərinsə şəxsi maraqlarına, tamahına qurban getdiyini ortaya qoyur.

Əbülfəs müəllim isə həmişəki kimi bu mövzuda da susur.

Odur ki V.Gülməmmədovun sözlərini qəribçiliyə salmamaq lazımdır.Tanınmış kino tənqidçisi Sevda Sultanovanın dediyi kimi: "Hesablama Palatasının sədrinin fikri ilə razıyam ki, indiki şəraitdə kinoya ayrılan pulu yarı-yarıya kəsmək lazımdır. Dövlət maliyyə baxımından kino qarşısında öhdəliyini həmişə layiqincə yerinə yetirib. Sadəcə, işini bilməyən kino məmurları milyonlarla vəsaiti əhəmiyyətli istiqamətdə xərcləmədiklərindən hazırda kinomuzun vəziyyəti acınacaqlıdır. Nəticə olmadığına görə də maliyyənin azaldılması doğru təklifdir"...

Bəli, kino çəkilməsinə vəsaitin artırılması yalnız şəffaflıq və hesabatlılıq təmin edildikdən sonra baş verə bilər. Bir də öncəki illərdə ayrılan vəsaitlərin necə xərcləndiyi barədə Əbülfəs Qarayev və əlaqədar məmurlar yaxşıca sorğu-sual edildikdən sonra!

***Sənan Mirzə***

# Azərbaycanla-Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsinə start verilir

## Prinsip etibarilə sərhədlərin delimitasiyası ilə bağlı Avropa ilə Rusiya arasında fikir ayrılığı yoxdur, bu isə öz növbəsində prosesin həllini sürətləndirə bilər

***24 may 2022-ci il tarixində əldə edilmiş razılaşmaların həyata keçirilməsi çərçivəsində Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası Baş nazirinin müavini Mqer Qriqoryanın Ermənistan-Azərbaycan dövlətlərarası sərhədində sərhədin delimitasiyası üzrə Komissiya formatında ilk görüşü keçirilib.***

"Ermənistanın xarici işlər naziri ilə birlikdə son telefon danışığımız 25 aprel tarixində olub. Əgər şərait yaranarsa, yenidən telefon danışığını istisna etmirəm".

Bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında bildirib. "Ermənistan xarici işlər naziri Ararat Mirzoyanla telefon danışığı əldə olunmuş razılıqların icrasını təmin etməklə bağlı idi. Bundan sonra iki ölkə arasında əlaqələrin normallaşması üçün atılan addımlar zamanı danışıqlar istisna edilmir. Amma hələ yeni telefon danışığının vaxtı dəqiqləşdirilməyib", - deyə XİN başçısı vurğulayıb.



XİN rəhbəri Brüssel görüşündən sonra müsbət nəticələrin gözlənildiyini vurğulayıb: " Komissiyanın iclasını keçirmək müəyyən səbəblərə görə təxirə salınırdı. Amma Brüssel görüşündən sonra Azərbaycan və Ermənistan tərəfindən komissiyanın tərkib hissəsi təsdiqləndi və görüş təşkil olundu. Eyni zamanda, Azərbaycan sülh müqaviləsinin imzalanmasına hazırdır. Əlbəttə ki, bu da Azərbaycan tərəfinin təklif etdiyi beş prinsip əsasında olmalıdır".

Bu barədə fikirlərini "Unikal"la bölüşən şərhçi Turan Rzayev deyib ki, bu, 44 günlük müharibədən sonra tərəflər arasında ilk belə ciddi görüş idi. Onun fikrincə, görüşdə tərəflər bir sıra məsələlər üzrə mühüm razılığa gəlməyi bacarıblar:

"Birincisi, tərəflər delimitasiya və digər məsələlər üzrə Komissiya çərçivəsində işləməyə hazır olduqlarını bir daha təsdiq ediblər. Bundan başqa, Komissiyanın birgə fəaliyyətinin təşkilati və prosedur məsələləri müzakirə edilib.

Brüssel görüşündən iki gün sonra Sərhəd Komissiyalarının ilk birgə iclasının keçirilməsi həm rəsmi Bakının, həm də İrəvanın prosesdə maraqlı olduğunu göstərir. Tərəflərin delimitasiya və digər məsələlər üzrə Komissiya çərçivəsində işləməyə hazır olduqlarını bildirməsi də bunu təsdiqləyir.

Bununla belə, Bakı və İrəvan arasında sərhədlərlə bağlı ziddiyyətlər tam aradan qalxmayıb. Ermənistan Baş naziri Nikol Paşinyan delimitasiyanın SSRİ dağılandan sonrakı mövcud sərhədlər üzrə aparılmasını istəyir. Azərbaycan isə delimitasiya prosesində həm anklavların, həm də vaxtilə otlaq və əkin sahəsi adı ilə Ermənistana verilən ərazilərin nəzərə alınmasını tələb edir. Dövlət Komissiyasının tərkibində Naxçıvan Muxtar Respublikasının Baş nazirinin müavini, Qazax Rayon İcra Hakimiyyətinin başçısının yer alması da Bakının bu mövqeyindən geri dönməyəcəyini açıqca göstərir.

İkincisi, tərəflər dövlətlərarası sərhəddə görüşlərlə yanaşı, Komissiyanın növbəti iclaslarının fərqli yerlərdə keçirilməsi məqsədəuyğun hesab edilib. Belə ki, ikinci görüşün Moskvada, üçüncü görüşün isə Brüsseldə keçirilməsi barədə razılıq əldə edilib. Prinsip etibarilə sərhədlərin delimitasiyası ilə bağlı Avropa ilə Rusiya arasında fikir ayrılığı yoxdur. Bu isə öz növbəsində prosesin həllini sürətləndirə bilər. Belə ki, ikinci Brüssel görüşündə tərəflər aprel ayının sonuna qədər birgə komissiyanın yaradılması barədə razılığa gəlmişdi. Həmin razılaşma 26 noyabr Soçi bəyanatındakı "birgə komissiyanın yaradılmasına" əsaslanırdı. Bu mənada ikinci görüşün Moskvada, üçüncü görüşün isə Brüsseldə keçirilməsi əslində yeni bir şey deyil, əksinə mövcud prosesin öncədən təyin edilən qrafik üzrə aparıldığını göstərir.

Digər tərəfdən, ikinci görüşün Moskvada, üçüncü görüşün isə Brüsseldə keçirilməsinə Azərbaycan-Ermənistan sülh gündəliyindəki ehtimal edilən Qərb-Kreml rəqabətini neytrallaşdıra bilər".

Millət vəkili Ceyhun Məmmədov isə deyib ki, Azərbaycanla-Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılması iki ölkə arasında prosesin tənzimlənməsində öz töhfəsini verəcək. Deputat hesab edir ki, komissiyanın yaradılması iki ölkə arasında mövcud problemi həll etmək istiqamətində atılmış növbəti bir addımdır: "Biz ümumi prosesə baxanda, prosesi təhlil edəndə görürük ki, bu keçmiş münaqişə kifayət qədər ciddi bir prosesdir. Yəni, birdən-birə gözləmək ki, bütün proseslər həll olunacaq, bu, mümkün deyil. Zaman lazımdır və zamanla bu məsələlər həll olunacaq. Bilirik ki, əvvəl də Brüssel görüşü keçirilmişdi. Ermənistan bir neçə dəfə söz versə də, həm Brüsseldə, həm də Moskvada bu komissiyalar yaradılmamışdır. Bu çox ciddi bir irəliləyişdir ki, artıq komissiyalar yaradılıbdır və bunla bağlı bir görüş də keçirilib. Hesab edirəm ki, bu, bizə ümumi məsələnin, prosesin tənzimlənməsində öz ciddi töhfəsini verəcək",- deyə deputat qeyd edib.

C. Məmmədov onu da bildirib ki, əslində Ermənistanın hazırki Baş naziri və hakimiyyəti bu prosesin yekunlaşmasında, münasibətlərin normallaşmasında maraqlıdır: "Amma bunu da nəzərə almaq lazımdır ki, hazırki hakimiyyətə həm müxalifətdən ciddi təzyiqlər var, eyni zamanda burada Rusiyanın özünün də bu məsələnin tənzimlənməsi ilə bağlı fərqli bir baxışı, yanaşması var. Artıq Avropa İttifaqı təşəbbüsü öz əlinə alıb. Və bu da onu söyləməyə əsas verir ki, biz müəyyən bir məsafəni qət edə biləcəyik. Əlbəttə, zaman-zaman Ermənistan tərəfindən hansısa addımların atılma ehtimalı var, nəyisə pozmağa cəhd edə bilərlər. Biz bu mərhələni də keçməliyik və bununla da bütün məqsədlərimizə nail olacağıq".

**Z.Məmmədli**



## Fərid Qayıbov Azad Rəhimovun qaynını işdən çıxardı

***Bakı Su İdman Sarayının direktoru Elçin Həsənov işdən çıxarılıb. Fərid Qayıbovun əmri ilə onun yerinə Zaur Yaqubov təyinat alıb.***

E.Həsənov bundan sonra Azərbaycan Üzgüçülük Federasiyasının vitse-prezidenti olacaq.

Qeyd edək ki, E.Həsənov sabiq gənclər və idman naziri Azad Rəhimovun qaynıdır.

O, bu gün Oxu.az-a müsahibəsində A.Rəhimovun qaynı olması və buna görə işdən çıxarılması ilə bağlı suala belə cavab verib: "Məni üzrlü sayın, ancaq mən bu suala cavab verməK istəmirəm. Cavab versəm, subyektiv fikir alınar. Kim mənim üzümə gəlib deyə bilər ki, Azad Rəhimovun qohumu idin, ona görə işdən çıxmalısan. Amma indi yeni nazirdir, öz kadrlarını gətirir, bu, normaldır. Həmişə necə olubsa, indi də elədirg Ancaq bu obyekt yeganə idman qurğusudur ki, həmişə yaxşı işləyib".

Xatırladaq ki, Azad Rəhimov 2006-cı ildə gənclər və idman naziri təyin olunub. O, 2021-ci ildə ağciyər xərçəngindən və qaraciyər sirrozundan dünyasını dəyişib. A.Rəhimovun yerinə 2021-ci il sentyabrın 7-də Fərid Qayıbov təyinat alıb.

## "Tez-tələsik quru sərhədləri açmağa ehtiyac yoxdur" - Fəzail Ağamalı

***"Yoluxmanın azalmasına arxayın olub tez-tələsik quru sərhədləri açmağa ehtiyac yoxdur".***

"Unikal" xəbər verir ki, bu sözləri Azxeber.com-a açıqlamasında Milli Məclisin deputatı Fəzail Ağamalı deyib.

O qeyd edib ki, bu məsələlərdə Operativ Qərargahın qərarlarını gözləmək lazımdır: "Bu məsələlərə səlahiyyət sahibi Operativ Qərargahdır. Operativ Qərargah da kifayət qədər peşəkar fəaliyyətini ortaya qoyub. Onun çıxarmış olduğu qərarlar, verdiyi tövsiyələr hər zaman özünü doğruldub. Ona görə də, darıxmadan onun tövsiyəsini və atacağı addımları gözləmək lazımdır".

Deputatın sözlərinə görə, pandemiya hələ bitmədiyi üçün bu cür qərarlar verərkən diqqətli olmaq lazımdır: "Pandemiyada hələ də davam edir, yoluxma qalxır-enir. Bu günlərdə yenə də az da olsa, yoluxanların sayı artdı. Ətrafımızda o proseslər gedir, yoluxmaların sayı çoxalır, dünyada hələ qalır, aradan qalxmayıb. Bu məsələdə çox diqqətli olmalıyıq. İndiyədək gətirib bu səviyyəyə çatdırmışıq, yoluxmanın aradan qaldırılması imkanlarına malikik. Amma buna arxayın olub, ehtiyac olmadan tez quru sərhədləri açmağa ehtiyac yoxdur. Mənə elə gəlir ki, bu məsələlər Operativ Qərargah səviyyəsində yüksək peşəkarlıqla təhlil olunur, sonra nəticə çıxarılaraq addımlar atılır. Xalqımıza da müraciətim xahişim, tövsiyəm odur ki, Operativ Qərargahın qərarlarına hörmətlə yanaşaq və onu gözləyək".

F.Ağamalı yeni yayılan meymunçiçəyi virusu haqda danışıb: "İndi yeni virus yaranıb, şükür ki, bizdə hələ ki, yoxdur. Məndə olan məlumata görə, ətraf dövlətlərdə də yoxdur. Daha çox sıx əlaqədə olduğumuz Türkiyədə də bu yaxınlarda Səhiyyə naziri çıxış etdi, dedi ki, belə bir şey yoxdur. Hər halda gözləyək, ümid edək ki, bizdə yayılmayacaq, bu virusdan uzaq olacağıq".

# Putin İlham Əliyevə məktub göndərdi



***Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli İlham Heydər oğlu. Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkənizin sosial-iqtisadi inkişafda qazandığı uğurlar hamı tərəfindən qəbul edilib. Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində mühüm rol oynayır.

Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyəsini məmnunluqla qeyd edirik. Fevral ayında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə, heç şübhəsiz, bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətcə yüksəlməsinə şərait yaradacaq. Bu, dost xalqlarımızın mənafelərinə tam cavab verir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına xoşbəxtlik və firavanlıq arzu edirəm".

# Prezident və birinci xanım Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər.***



Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olub, Cəbrayıl rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin Soltanlı stansiyasının və "Azərenerji" ASC-nin 330/110 kV-luq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimində iştirak ediblər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonuna gəldilər.

Dövlətimizin başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanının və "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidinin tikinti işləri ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olunub.

Dövlətimizin başçısı və birinci xanım səfər çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olublar. Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcı Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən bu yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaq. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşıb, hazırda beton işləri icra olunur. Digər iki tuneldə isə qazma işləri davam etdirilir. Həmçinin bu yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulub. Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır.

Qeyd edək ki, hazırda yolun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra edilir. Yolun genişləndirilərək profilə salınması, birinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası və paralel olaraq asfalt örtüyünün salınması həyata keçirilir. Tikinti işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

# Azərbaycan XİN Gürcüstanı təbrik etdi

***Azərbaycan Xarici İşlər Nazirliyi Gürcüstanı Müstəqillik Günü münasibətilə təbrik edib.***



"Unikal" xəbər verir ki, bu barədə nazirliyin "Twitter" səhifəsində paylaşım edilib.

"Gürcüstanın Milli Günü münasibətilə Gürcüstan hökumətinə və xalqına ən xoş arzularımızı və səmimi təbriklərimizi bildiririk. Strateji əlaqələrimizi daha da gücləndirməyi səbirsizliklə gözləyirik. Milli bayramınız mübarək, Gürcüstan!",- deyə paylaşımda qeyd olunub.

# Son sutkada 2 nəfər koronavirusdan ölüb




***Azərbaycanda bu gün koronavirus infeksiyasına 3 yeni yoluxma faktı qeydə alınıb, 9 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 2 nəfər COVID-19-dan dünyasını dəyişib.

# Azərbaycanda seçici siyahılarının dəqiqləşdirilməsi başa çatdı

***Azərbaycan üzrə seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirmə prosesinə yekun vurulub.***




"Unikal"ın xəbərinə görə, bununla bağlı sabah Mərkəzi Seçki Komissiyasında (MSK) geniş tədbir keçiriləcək. Tədbirin ardınca isə MSK-nın iclası baş tutacaq. Qeyd edək ki, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq seçicilərin daimi siyahısı hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyası tərəfindən MSK-nın müəyyənləşdirdiyi formada hər il mayın 30-dək təsdiq edilməlidir.

Daha sonra isə MSK-nın müəyyən etdiyi qaydada seçici siyahıları MSK-nın (dairə seçki komissiyasının) müvafiq internet saytında yerləşdirilməlidir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# DSX-nin baş çavuşu intihar ETDİ

***May ayının 26-da Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Horadiz sərhəd dəstəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Şirəliyev Canmirzə Çingiz oğlu xidmət yerindən kənarda intihar edib.***

"Unikal" xəbər verir ki, bu barədə DSX Mətbuat Mərkəzi məlumat yayıb.

İlkin olaraq intiharın hərbi xidmətlə bağlı olmayan səbəbdən baş verməsi ehtimal edilir.




# "Rusiya şərtlərinin Ukrayna tərəfindən qəbul edilməsini gözləyir" - Peskov



***Moskva Kiyevin Rusiyanın qeyd etdiyi tələbləri qəbul etməsini və real vəziyyəti anlamasını gözləyir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bildirib.

"Moskva Kiyevin Moskvanın tələblərini qəbul etməsini və de-fakto vəziyyəti, mövcud olan real vəziyyəti dərk etməsini gözləyir. Bunlar ərazi güzəştləri deyil. Kiyevə, bir daha təkrar edirəm, de-fakto vəziyyəti tanımaq və sadəcə ayıq şəkildə qiymətləndirmək lazımdır", - deyə Peskov əlavə edib.

***Ağarza Elçinoğlu***

# Peyvənd olunanların sayı açıqlandı

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 2933 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 354, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 268, 3-cü və daha çox doza üzrə vaksinasiya olunanların sayı 2086, pozitiv nəticədən sonra buster doza olunanların sayı isə 225 nəfərdir.

# Monopolistlərin bahalaşma oyunu...

## Süni qiymət artımının kökünü biryolluq kəsməyin təbii yolu - daha ağır cəzalar və "Rəqabət Məcəlləsi"...

***Bu bir həqiqətdir ki, bütün dünya üzrə inflyasiyanın sürətlənməsi müşahidə edilir. Səbəblər müxtəlifdir; qiymət artımının əsas səbəbkarı koronavirus pandemiyası sayılır. Belə ki, sərhədlərin bağlanmasından dolayı tədarük zənciri sıradan çıxdı. Müxtəlif bazarlar bir çox məhsul, xammal və hissələrsiz qaldı. Qlobal şirkətlərin istehsallarının əhəmiyyətli hissəsinin yerləşdiyi Asiyada koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində bir çox istehsallar dayandırıldı. Həmin məhdudiyyətlər aradan qaldırılandan sonra qiymət artımını dayandıra biləcək həcmdə məhsul tədarük etmək mümkün olmadı.***

Qlobal inflyasiyanı tətikləyən digər vacib faktor enerji daşıyıcılarının qiymətlərinin kəskin artması oldu. Üstəlik, Rusiyanın Ukraynaya hücumu və bundan sonra yaranan yeni hərbi-siyasi şərait də qlobal təklif defisitinə gətirib çıxardı. Belə ki, bu iki ölkə qlobal ərzaq təminatında mühüm pay sahibidirlər. Buğdanın ən iri tədarükçüləri olan Misir, Türkiyə, Banqladeş və İranın taxıla olan ehtiyacının 60 %-ni məhz Rusiya və Ukrayna ödəyir.



Bundan başqa, hərbi əməliyyatlar səbəbilə Ukraynanın bütün limanlarında kommersiya gəmiçiliyi dayandırılıb. Və ya Rusiyanın kənd təsərrüfatı məhsulları ixracı isə sanksiyalar altında olmasa da, beynəlxalq sığorta şirkətlərinin tətbiq etdiyi sanksiyalar nəticəsində o, həmin məhsulları xaricə tədarük edə bilmir.

Bir sözlə, artan inflyasiya artıq dünyanın problemidir. Amma...

Məsələnin "əmma"sı odur ki, Azərbaycanda yüksələn bahalaşma yalnız yuxarıda sadaladığımız qlobal səbəblərlə məhdudlaşmır, açıq şəkildə görünür ki, ölkədəki inflyasiyada subyektiv amillərin payı da kifayət qədərdir. Söhbət əsasən iki faktordan - inhisarçılıqdan və məmur biznesindən gedir. Yerli bazarın iri oyunçuları, - hansı ki, əksəriyyəti monopolist mövqelərə sahibdirlər və müəyyən məmurlarla bu və ya digər şəkildə bağlıdırlar, elə ona görə də özlərini toxunulmaz sayırlar! - qiymətləri süni şəkildə artırma yolunu tuturlar.

Dediklərimizə şübhə ilə yanaşanlara elə iki gün öncə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin yaydığı bir məlumatı xatırlatmaq istəyirik. Həmin məlumatda bildirilirdi ki, ölkədə həyata keçirilən antiinflyasiya tədbirləri çərçivəsində ərzaq bazarında antiinhisar qanunvericiliyinin tələblərinə əməl edilməsinə nəzarət məqsədilə aparılan araşdırmaların nəticəsinə görə 14 şirkətə qarşı iş qaldırılıb!

O da qeyd edilirdi ki, araşdırma zamanı istehlak səbətinə daxil olan uzun düyü və qarabaşaq bazarında bir çox təsərrüfat subyektləri tərəfindən antiinhisar qanunvericiliyinin pozulması əlamətləri aşkar olunub. Nəticədə isə iş qaldırılan şirkətlər Dövlət Xidməti tərəfindən "Babək" firması, "Vuqma-qida" MMC, "Abşeron Treyd" MMC, "Xudafərin-1" MMC, "Elsaan Group" MMC, "Veysəloğlu" MMC, "Qida XXI" MMC, "Best-Tarım" MMC, "Tamashee Foods" MMC, "Araz Supermarket" MMC, "Al market" MMC, "Sun Food" MMC, "OBA Market" MMC, "Bazarstore" MMC (bundan başqa, fiziki şəxs Kərimov İlqar Məmmədhəsən oğlu) olaraq sıralanmışdı.

Elə bu faktın özü də təsdiqləyir ki, Azərbaycanda son zamanlar xüsusilə qabarıq görünən və az qala, normaya çevrilən bahalaşma faktorunu yalnız qlobal proseslərlə izah eləmək yanlışdır, daxili bazarın aparıcı istehsalçıları və ya idxalçıları da həmin prosesdə ciddi rol oynayırlar. Bir az da konkretləşdirsək, qlobal inflyasiyaya gətirib çıxaran səbəbləri ikiqat fürsətə çevirir, bazardakı monopolist mövqelərindən sui-istifadə edir və qiymətləri anormal həddə artırırlar. Nəticədə isə vətəndaşlarda narazılıq əhval-ruhiyyəsi formalaşdırırlar.

Üstəlik, o da aydın görünür ki, cəmiyyətin hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirlərini yetərli hesab etməməsi anlaşılandır. Gəlin razılaşaq ki, sözügedən tədbirlər hələlik real nəticələr doğurmur, süni bahalaşmanı əngəlləməkdə kifayət deyil. Belədə sadə vətəndaşın aidiyyatı dövlət qurumlarından giley-güzarı da təbii sayılmalıdır.

Bəs antiinflyasiya tədbirlərinin effektivliyinə mane olan başlıca səbəb nədir? Əlbəttə ki, məmur biznesi və məmur bağlantılı inhisarçılıq! Monopolistlər məhz bu bağlantı sayəsində özlərini toxunulmaz sayır, ən pis halda müəyyən cərimə məbləğləri ödəməklə işin içindən çıxa biləcəklərini düşünür və süni qiymət artımını davam etdirirlər. Həqiqətən də, çoxmilyonluq dövriyyəyə malik inhisarçıları bir neçə min və ya on min manat cərimələməklə, doğrudanmı, onları süni bahalaşdırmadan çəkindirmək olar?! Cəzaları daha da sərtləşdirmək, eyni zamanda, qəbulu 16 ildən çoxdur dalana dirənən Rəqabət Məcəlləsini qəbul etməklə həm məmur biznesinə, həm inhisarçılığa həlledici zərbə endirmək, əsassız qiymət artımı ilə haqq-hesabı biryolluq çürütmək zamanı gəlib çatmayıbmı?

O ki, qaldı bu gün bazarda baş verən qiymət artımlarının obyektiv səbəblərinə, - yəni qlobal faktorlara! - bəli, bu tendensiyanın qarşısını hökumət inzibati yolla ala bilməz, çünki həmin cəhdlər milli iqtisadiyyatı və onun aparıcı fiqurlarını - sahibkarları, iş adamlarını ciddi problemlərlə üzləşdirə bilər. Lakin, ən azı, bahalaşmadan sığortalanmaq üçün yalnız əhalinin gəlirləri artırılmalı və bundan ötrü müvafiq addımlar atılmalıdır. Əməkhaqları, pensiya, sosial müavinət və ödənişlər yüksəldilməlidir.

***Murad İbrahimov***

# Səlim Müslümov ev dustaqlığına buraxıldı

***Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov azadlığa buraxılıb.***



"Unikal" xəbər verir ki, bu barədə qərar Səbail Rayon Məhkəməsində elan olunub. Məhkəmənin qərarı ilə onun barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilərək ev dustaqlığı qətimkan tədbiri ilə əvəz edilib.

Qeyd edək ki, Səlim Müslümov Azərbaycan əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb.

Toplanılan materiallar əsasında başlanılan cinayət işi üzrə Səlim Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin Səlim Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub.

Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Səlim Müslümov Azərbaycan Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Kimlərin koronavirus cəriməsi silinəcək? - Açıqlama



***"Karantin qaydalarının pozulması ilə bağlı cinayət törətmiş şəxsin vəziyyətini yüngülləşdirən hal kimi ancaq cinayət qanununun geriyə qüvvəsi şamil oluna bilər. Burada normativ hüquqi aktların ləğvindən söhbət gedə bilməz".***

"Unikal" xəbər verir ki, bu sözləri "ARB24"də yayımlanan "İş vaxtı" verilişində qonaq olan vəkil Elvin Əliyev bildirib.

Onun sözlərinə görə, bir dəfə cərimələnənlə mütəmadi olaraq karantin dövründə inzibati məsuliyyətə cəlb olunan və cərimə edilən şəxslərin cərimələrinin hər ikisinin birfədəlik silinməsi məqsədəmüvafiq olmaz: "Həmin cərimələr bağışlanacaqsa, icra olunmamış cərimələrə şamil edilə bilər".



## Sərdar Cəlaloğlu Prezident Administrasiyasına çağırıldı

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev yeni siyasi konfiqurasiyanın inkişafı çərçivəsində mayın 26-da Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ilə görüşüb.***

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, Prezident İlham Əliyevin "Mən yeni siyasi islahatlar proqramını təqdim etmişəm, o, bütün siyasi partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənib... Biz siyasi dialoqun çox aktiv fazasındayıq" fikirlərini xatırlatmaqla görüşə başlayan şöbə müdiri Azərbaycan Demokrat Partiyasının iqtidarla əməkdaşlığını yüksək dəyərləndirib.

Yeni siyasi konfiqurasiyanın inkişaf etdirilməsi, iqtidar-müxalifət dialoqunun təşviqi ən yeni islahatlar dalğasının tərkib hissəsi kimi qeyd olunub. Bildirilib ki, ölkəmizdə siyasi partiyalar arasında sağlam münasibətlərin qurulması, partiyaların legitim fəaliyyəti üçün lazımi işlərin görülməsi dövlətimizin başçısı tərəfindən şöbənin qarşısına qoyulmuş önəmli vəzifələrdən biridir. Bu vəzifələrin layiqincə icrası üçün partiyalarla birgə əməkdaşlığa çox böyük önəm verilir. Hər bir partiyanın cəmiyyətin siyasi həyatına özünəməxsus qatqısı var və bu, ölkəmizdə fikir plüralizminin inkişafının qarantıdır. Təbii ki, ölkəmizdəki siyasi sabitlik uğurlarımızın vacib əsaslarından biridir və siyasi sabitliyin qorunması hər bir ölkə vətəndaşının üzərinə düşən məsuliyyətdir. Bu səbəbdən radikal siyasi meyllər dövlətçiliyə təhdiddir. Hər bir siyasi partiya bu təhdidlərə qarşı mübarizə aparmalı və cəmiyyətin ümumi inkişafına öz töhfəsini verməlidir.

Ölkəmizdə aparılan siyasi islahatlar çərçivəsində belə bir görüşə dəvət edildiyi üçün təşəkkürünü bildirən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu yeni siyasi konfiqurasiyanın formalaşdırılması istiqamətində atılan uğurlu addımlarla bağlı fikirlərini bölüşüb. Sərdar Cəlaloğlu qeyd edib ki, ölkədə sağlam siyasi mədəniyyətin formalaşdırılması, dövlətimizin müstəqilliyinin möhkəmlənməsi, ölkənin beynəlxalq nüfuzunun artırılması istiqamətində böyük işlər görülməkdədir. Postmüharibə dövrünün problemlərinin aradan qaldırılması, postpandemiya dövründə ölkə iqtisadiyyatının inkişafı, bütün əhali təbəqələrinin sosial müdafiəsinin güclənməsi üçün islahatların daha intensiv xarakter alması olduqca vacibdir. Azərbaycan Demokrat Partiyası dövlətimizin güclənməsi, əhalinin rifahının yaxşılaşdırılması, cəmiyyətin siyasi maarifləndirilməsi üçün imkanlarını səfərbər etməyə hazırdır.

Tərəflər ölkəmizdə partiyalararası əməkdaşlığın yeni formatları, iqtidar-müxalifət dialoqunun fərqli formalarda inkişafı, partiyaların beynəlxalq əlaqələrinin gücləndirilməsi, Azərbaycan-Türkiyə münasibətlərinin qardaşlıq səviyyəsində olması, Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsi, Qarabağda bərpa-quruculuq işləri və başqa məsələlər haqqında müzakirələr aparıblar.

# "Ermənistan danışıqlardan qaça bilməyəcək"

## Ziyafət Əsgərov: "Etirazlar davam etdikcə Ermənistan sosial, iqtisadi cəhətdən çökür, bunu ermənilər dərk etməlidir"

***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Unikal"a müsahibə verib. Deputat Prezident İlham Əliyevin Brüssel səfərindən, Ermənistandakı aksiyalardan, struktur islahatları və digər məsələlərdən danışıb.***

***-Mayın 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla növbəti görüşü oldu. Bu görüşün keçirilməsini necə qiymətləndirirsiz?***

- Bu görüşün çox böyük əhəmiyyəti var. Azərbaycan bir daha sübut etdi ki, hər zaman danışıqlar prosesinə hazırdır. Amma Ermənistan dəfələrlə danışıqlar prosesindən qaçmaq, yaxud onu uzatmaq istəyirdi. Əvvəlki görüşlərdə də sülh sazişi, delimitasiya, demarkasiya, Azərbaycanın Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 minə yaxın vətəndaşları ilə bağlı məsələ, o cümlədən işğaldan azad olunmuş ərazilərdəki mina problemi gündəmə gətirilib. Hesab edirəm ki, bunlar Ermənistanın üzərinə düşən öhdəliklərdir və onlar bu öhdəlikləri qəbul edir. Biz Ermənistan tərəfindən həm itkin düşmüş vətəndaşlarımız barəsində, həm də minaların basdırıldığı ərazilərin xəritəsi ilə bağlı konkret addımlar gözləyirik. Çox yaxşı haldır ki, həm Azərbaycan, həm də Ermənistan tərəfindən delimitasiya üzrə Komissiya yaradılıb. Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə komissiyanın ilk görüşü olub. Azərbaycan həmişə bu məsələyə hazır idi. Bu, çox yaxşı haldır. Artıq proses gedir.

***- Sizin də qeyd etdiyiniz kimi hər iki tərəfdən sərhədlərin delimitasiyası üzrə komissiya yaradılıb. Bu komissiyaların yaradılması ilə işlər sürətlənəcəkmi və ya Ermənistan hansısa formada yenidən məsələni uzada bilərmi?***

-Azərbaycan sülh sazişi, delimitasiya, demarkasiya, o cümlədən danışıqlar prosesi ilə bağlı dediyi sözə həmişə əməl edib. Əsas odur ki, Ermənistan tərəfindən konkret əməli addımlar atılsın. Qeyd olunan məsələlər mütləq həll olunmalıdır. Ermənistanın özünə də sərf etmir ki, delimitasiya və demarkasiya məsələləri havadan asılı qalsın. Bu, əks halda Ermənistanın özünün zərərinə işləyəcək. Burada xüsusilə Zəngəzur dəhlizini qeyd etmək istəyirəm. Zəngəzur dəhlizi artıq həyata vəsiqə almış bir məsələdir və 100 faiz həll olunacaq. Yəni, Azərbaycana Laçın dəhlizi varsa, Mehridən də Naxçıvana Zəngəzur dəhlizi açılmalıdır. Burada həm avtomobil, həm də dəmir yollarından söhbət gedir. Azərbaycan tərəfindən bu barədə heç bir narahatlıq yoxdur. Ermənistan buna qədər etdiyi bəhanələri aradan götürməli və danışıqlar prosesinə sadiq olmalıdır.

***-Bir aydan çoxdur ki, Ermənistanda aksiyalar keçirilir. Əvvəlki günlərlə müqayisədə aksiyada iştirak edənlərin sayı artır. Bu mitinqlərin məqsədi nədir və sonu nə ilə nəticələnə bilər?***

-Görüşlərin hamısında Ermənistan öz üzərinə öhdəliklər götürüb. Bunların hamısı beynəlxalq öhdəliklərdir və onlardan qaçmaq mümkün deyil. Bu aksiyaların keçirilməsini, öhdəliklərin yerinə yetirilməsi ilə bağlı revanşist qüvvələrin müəyyən təsirləri olduğunu bəhanə etmək qəbuledilməzdir. Özünü möhkəm hesab edən hökumət başçısı belə şeylərə əhəmiyyət verməli deyil. Öz əhalisinə izah etməlidir ki, bu məsələdə başqa çıxış yolları yoxdur. Bunlar ancaq Ermənistanın xeyrinə ola bilər. Azərbaycan 5 prinsip irəli sürüb. Bunların hamısı beynəlxalq hüquq prinsipinə əsaslanan məsələlərdir. Ərazi bütövlüyünü tanımaq, suverenliyə, sərhəd bütövlüyünə hörmət etmək, bir-birinin daxili işlərinə qarışmamaq, hədə gəlməmək, yolların açılması, sərhədlərin çəkilməsi kimi məsələlər nəzərdə tutulub. Bunların hansı beynəlxalq hüquq prinsipinə ziddir? Ermənistandakı revanşist qüvvələr burada qeyri-hüquqi nə görürlər ki, mitinq edirlər? Bu mitinqləri kimlərin və nə üçün qızışdırdığını bilirik. Hər bir hökumət öz əhalisinə başa salmalıdır ki, kənardan və ya daxildən olan qızışdırıcı qüvvələrin quyruğunda getmək olmaz. Burada söhbət Ermənistan dövlətinin və orada yaşayan xalqın taleyindən gedir. Ermənistan hökuməti bunu onlara izah etməlidir. Ermənistan danışıqlardan qaça bilməyəcək. Beynəlxalq aləm görür ki, Azərbaycan tam haqlı tərəfdir. Ermənistan bu danışıqlardan qaçacaqsa, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyəcəksə, daxildən revanşist qüvvələrin buna mane olduğunu bəhanə edəcəksə, bunlar elə bəhanə olaraq da qalacaq. Beynəlxalq təşkilatlar da Azərbaycanın haqlı olduğunu gördü. Ermənistan dövləti bir daha bundan nəticə çıxarmalıdır.

***-Özünüz də qeyd etdiniz ki, bu aksiyaların keçirilməsində kənar qüvvələrin maraqları var. Ermənistandakı mitinqlərə təsir göstərən hansı kənar qüvvələrdir?***

-Bunlar o qüvvələrdir ki, Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olmasını, Ermənistanın inkişafını, Cənubi Qafqazda sülhün, sabitliyin, təhlükəsizliyin olmasını istəmirlər. Ermənistandakı askiyaları daxildə şəxsi maraqları olan revanşist qüvvələrlə yanaşı kənardan qızışdıranlar da var. Onlar bu regionda sülhün olmasını istəmirlər. Biz isə regionda sülhün olmasını istəyirik. Ermənistan üçün də sülh, təhlükəsizlik, sabitlik lazımdır. Biz əbədi müharibə apara bilmərik. Ermənistanda da bunu dərk etməlidirlər. Həmçinin, onların bizimlə müharibə aparmaq gücü yoxdur. Bu etirazlar davam etdikcə Ermənistan sosial, iqtisadi cəhətdən çökür. Bunu Ermənsitan əhalisi dərk etməlidir.



***-Vətən müharibəsində Ermənistan ordusu darmadağın edildi. Buna baxmayaraq, son bir neçə gündə Ermənistan silahlı qüvvələri Ordumuzun mövqelərini atəşə tuturlar. Onların atəşkəsi pozmaqda məqsədi nədir?***

-Ermənistan güclü ordusunun olması ilə bağlı mif yaratmışdı. 44 günlük Vətən müharibəsi göstərdi ki, Ermənistanın ordusu deyilən anlayış yoxdur. Ermənistan ordusu, iqtisadi cəhətdən zəif bir ordudur. Son zamanlar Kəlbəcər, Tovuz, Gədəbəy istiqamətində dövlət sərhədimizi atəşə tutur, təxribat törədirlər. Bunların hamısı Ermənistanın əleyhinə işləyən amillərdir. Bu yolla danışıqlar prosesini uzatmaq, pozmaq mümkün deyil. Bu gün beynəlxalq hüququn prinsipləri Azərbaycanın xeyrinədir. Bütün dünya gördü ki, Azərbaycan beynəlxalq hüququn əsasını təşkil edən prinsiplər irəli sürüb. Ermənistanın rəhbərliyi də dəfələrlə qeyd edib ki, Azərbaycanın təqdim etdiyi 5 prinsipdə qeyri-hüquqi bir şey görmürlər və onu qəbul edirlər. Burada müəyyən revanşist qüvvələrin öz şəxsi maraqları var,bunu biz başa düşürük. Hər bir halda revanşist qüvvələrin qarşısını almaq Ermənistan hökumətinin borcudur. Onlar danışıqlar prosesini pozmağa cəhd edəcəklərsə, "dəmir yumruğ"un qüvvədə olduğunu bilməlidirlər.

***-Ölkəmizdə daim bir sıra sahələrdə kadr və struktur islahatları aparılır. Bu günlərdə də kadr dəyişiklikləri oldu. Sizcə islahatlar bundan sonra hansı sahələri əhatə edəcək?***

-Kadr və struktur islahatları daim aparılır. Bunların hamısı ölkənin inkişafını daha da irəli aparmaq üçündür. Ölkədə sosial, iqtisadi inkişafımızın gücləndirilməsi davam edir. Rotasiya məsələsi dünyada olan prosesdir. Müntəzəm olaraq kadr dəyişiklikləri olur, bundan sonra da davam edəcək.

***Anar Kəlbiyev***

# Ziya Məmmədovun 45 milyonluq yol yalanı...

## Sabiq nazir yarım milyard manatdan çox dövlət vəsaitini xərclədiyi Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yoluna görə sorğu-sual ediləcəkmi?

***Bir neçə gün öncə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məlumat yaydı ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda yenidən əsaslı təmir-bərpa işlərinə başlanılır. Təmir-bərpa işləri magistral yolun 88-ci kilometrindən başlayaraq Bakı şəhəri istiqamətində aparılacaq: "Avtomobil yolunda hərəkət intensivliyi nəzərə alınaraq işlər hissə-hissə aparılacaq. İşlərin aparıldığı ərazidə avtonəqliyyat vasitələrinin hərəkəti tam olaraq məhdudlaşdırılacaq. Təmir-bərpa işləri aparılan müddət ərzində əks istiqamət üzrə avtonəqliyyat vasitələrinin ikitərəfli hərəkəti təmin ediləcək. Əks istiqamət üzrə ikitərəfli hərəkətin təhlükəsiz və maneəsiz təmin olunması üçün ərazidə əlavə təhlükəsizlik tədbirlərinin görülməsi, müvafiq nişanlanma xətlərinin çəkilişi və müvəqqəti yol nişanlarının quraşdırılması işləri aparılacaq".***

"Unikal"ın əldə etdiyi məlumata görə, artıq təmir-bərpa işlərinə başlanılıb. Belə ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun böyük bir hissəsində avtonəqliyyat vasitələrinin hərəkəti tam olaraq məhdudlaşdırılacaq. Hazırda magistral yolun 88-ci kilometrliyindən başlayaraq avtonəqliyyat vasitələri birtərəfli hərəkət edir.



Maraqlısı odur ki, vaxtilə sabiq nəqliyyat naziri Ziya Məmmədov sözügedən yola 30 il qarantiya vermişdi. Üstəlik, yolun hər kilometri təxminən 4,5 milyon manat kimi fantastik rəqəmə başa gəlmişdi! İndi isə belə məlum olur ki, bu qədər vəsait yalnız kağız üzərində "xərclənib". Həmin pulların böyük bir hissəsi korrupsiya predmetinə çevrildiyindən 30 illik qarantiya da kağız üzərində qurulub və istifadəyə verilməsindən cəmi 10 il sonra bu yolun təmir-bərpasına ehtiyac duyulması da məhz həmin mənimsəmənin məntiqi sonluğudur. Hələ onu demirik ki, bu yolda ilk təmir işlərinə onun istifadəyə verilməsindən cəmi 5 il sonra ehtiyac yaranmışdı! Məsələn, yolun 132 km-lik Bakı-Gəndov hissəsində 2012-ci ildə çatlar və dağılmış hissələr əmələ gəldi, ardınca da təmir işləri başladı. Sonrakı illər ərzində yolun müxtəlif hissələrində mütəmadi aparılan təmir-bərpa işlərinə xərclənən vəsaitləri də

bir az da konkretləşdirək: rəsmi məlumatlara görə, tikintisinə 2008-ci ildən başlanılan layihəyə ümumilikdə 545 milyon 287 min 800 manat xərclənib. Həmin vəsaitin 281 milyon 861 min 800 manatı Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil yolunun 120 kilometrlik hissəsinin təmirinə sərf olunub. Yerdə qalan 263 milyon 426 min manata isə 180 kilometr uzunluğunda beton örtüklü avtomobil yolu salınıb.

Lakin reallıq rəsmi məlumatların səhihliyini şübhə altına alır. Daha doğrusu, yarım milyard manatdan artıq vəsaitin təyinatı üzrə - sözügedən yolun yüksək səviyyədə çəkilməsinə xərcləndiyindən şübhə duymağa əsas verir.

Əlbəttə, sual yaranır: vaxtilə Hesablama Palatası yolun tikintisi ilə bağlı niyə audit aparmayıb?

Buna cavab tapmaq çətin deyil: qurumun o vaxtkı sədri Heydər Əsədov "nəqliyyat şefi" ilə quda olduğundan Z.Məmmədovun korrupsiya qoxulu digər layihələri kimi buna da göz yummuşdu!

Belədə indi ikinci sual meydana çıxır: Hesablama Palatasının bu gün yüz milyonlarla manatın havaya sovrulduğu Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun tikintisi ilə bağlı yoxlamalara başlaması lazım deyilmi? Axı qurumun belə bir səlahiyyəti var və o, ötən illərə dair də auditlər həyata keçirə bilər.

Sözügedən yolun tikilməsində açıq-aşkar yeyintilərə yol verildiyi göz qabağında ikən, üstəlik, bu yeyintilərin məbləğinin kifayət qədər fantastik məbləğlərlə müşayiət edildiyinə heç bir şübhə olmadığı halda faktiki şəkildə fiaskoya uğramış bir layihənin arxasındakı gizlinləri gün işığına çıxarmaq vacibdir. Həmin fiaskonun cavabdehləri, - əlbəttə, başda keçmiş "nəqliyyat şefi" Ziya Məmmədov olmaqla! - cavab verməlidirlər ki, hər kilometri 4,5 milyon manat kimi gözqamaşdırıcı məbləğə başa gələn, üstəlik, 30 illik qarantiya ilə istismarına başlanan bir yolun cəmi 10 il sonra təmir-bərpasına ehtiyac duyulmasının sirri nədir?

Əlbəttə, ortada "sirr" yoxdur, yuxarıda da yazdığımız kimi, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun düşdüyü vəziyyətin başlıca səbəbi korrupsiyadır. Lakin bunu Ziya Məmmədovun, eləcə də, fiaskoya uğrayan məlum layihənin icraçılarının öz dilindən eşitməyi hər kəs çox istəyərdi.

İmkan verilməməlidir ki, biriləri dövlət vəsaitini göz-görəti şəkildə talan eləsinlər və mənimsədikləri pulları sanki heç nə olmamış kimi, xımır-xımır yesinlər! Əks halda, bu cəzasızlıq mühitinə yol açır, digər məmurları da büdcə vəsaitlərinə yan gözlə baxmağa həvəsləndirir. Bunu unutmamaq lazımdır...

***Sənan Mirzə***




# "TEKNOFEST" festivalı başladı

***4 gün davam edəcək "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı başlayıb.***

"Unikal" xəbər verir ki, festivalın açılışı musiqi proqramları ilə başlayıb. Festivalda rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Türkiyənin Texnoloji Takımının İdarə Heyətinin sədri Selçuk Bayraktar, Türkiyənin sənaye və texnoloji naziri Mustafa Varank iştirak edirlər.

Gün ərzində festival iştirakçılarına müxtəlif aviaşoular, robot şou, külək tunelində şoular nümayiş olunacaq.

Birinci günün sonunda təşkil ediləcək konsert proqramında Xalq artisti Aygün Kazımova, müğənnilər Nigar Camal, Azad Şabanov və digərləri çıxış edəcək.

Günün sonunda isə lazer şou olacaq. Şounu Dənizkənarı Bulvarın bütün nöqtələrindən izləmək mümkün olacaq.

Qeyd edək ki, "TEKNOFEST" Türkiyənin Sənaye və Texnologiya Nazirliyinin, eləcə də Selçuk Bayraktarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" (T3) Vəqfinin təşkilatçılığı ilə 2018-ci ildən etibarən hər il keçirilir və ilk dəfə bu il xarici ölkədə - Azərbaycanda təşkil olunur. Azərbaycanda "TEKNOFEST Azərbaycan"nın təşkilatçılığı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilib.

Selçuk Bayraktar: "Bakıda, qardaşlarımızla birlikdə olmağa məmnunam. Bir millət, iki dövlət olaraq qardaşlığımız dəfələrlə sınandı və şükürlər olsun, hər dəfə bu bağlarımız daha da qüvvətləndi. 1918-ci ildə Bakını İstanbuldan ayrı görməyən Nuru Paşa komandanlığında Qafqaz İslam Ordusu da, Qarabağa xidmət edən milli PUA-ları yaradan türk mühəndislər də eyni ruhu rəhbər tutdu. Bizim də ürəyimizdə bir yara olan Qarabağ, eyni zamanda qardaşlığımızın zirvəsidir. Ruhlarınız şad olsun. Bu vəsilə ilə Qarabağı təkrar vətən torpağı halına gətirən, zəfərin əsl memarı olan şəhidlərimizi anmaq istəyirəm. Azərbaycanda bizə yaxın olan bir atalar sözü var: Dost yaman gündə tanınar. Bax bunun sayəsində ən yaman gündə belə bir yerdə idik. İnşallah dünya üzərində son günümüzə qədər bir yerdə olmağa davam edəcəyik".

Rəşad Nəbiyev: "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqliyin bariz nümunəsidir. Gələcəkdə də biz bir yerdə addımlayacağıq. Bu, gənclərin festivalıdır və Azərbaycan xalqı haqlı olaraq gəncləri ilə qürur duyur. 44 günlük Vətən müharibəsində bu gənclərimiz Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağı düşməndən azad etdi.

"TEKNOFEST" gənclərə 6 ay ərzində bir-birindən öyrənmək bacarığını mənimsətdi. Burada müxtəlif yarışmalar, festivallar keçirilib. Düşünürəm ki, festivalda hər bir şəxs qalibdir. Buradakı ən önəmli tədbirlərdən biri "Smart Qarabağ" Hakatonudur. "TEKNOFEST" "Startup" festivalıdır.

Festival çərçivəsində qaliblər 28 mayda elan olunacaq, ancaq burada iştirak edən hər kəs qalibdir. "Startup" festivalında bizim gənclərimiz xaricdən dəvət olunan investorlarla birlikdə işləyəcəklər. Burada Azərbaycan və Türkiyə hərbi hava qüvvələrinin əzəmətinin şahidi olacağıq. "TEKNOFEST" elmin, qardaşlığın qələbəsidir".

Mustafa Varank: "Bu gün bütün imkanlarımızla Azərbaycanın yanındayıq, sabah da bütün imkanlarımızla Azərbaycanın yanında olmağa davam edəcəyik. Biz Azərbaycan və Türkiyə üçün hədəf seçdik. Bizim müstəqilliyimizin sirri texnologiya həmləsidir. Biz milli texnologiya həmləsi ilə bizə qarşı olan ölkələrə meydan oxuduq. Bu gün bizə PUA satmayan ölkələr bizim texnologiyamızı almaq üçün sırada gözləyirlər. Bunun əsas sirri əzmimiz, iradəmizdir.

Gənclərə yol göstərsəniz, bacarmayacağınız heç nə yoxdur. Bu festivalda hər il yüz minlərlə övladımız iştirak edir. "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında mükafatları birbaşa olaraq qardaş ölkələrin Prezidentləri təqdim edəcək. Şübhəsiz ki, "TEKNOFEST Türkiyə"dən sonra Azərbaycanda da tarixə keçəcək. Biz texnologiya baxımından müstəqil ola bilməməyin mənfi tərəflərini yaşamışıq. Bu gün Bakıda sadəcə festival təşkil etmirik. Dünyaya tək millət, iki millət şüarımızı bir daha çatdırırıq. Eşq olsun, Azərbaycan, eşq olsun, Türkiyə!".



## Əliyevlə Ərdoğan “Texnofest Azərbaycan”ı ziyarət edəcək

***“TEKNOFEST”in Azərbaycanda keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.***

“Unikal” xəbər verir ki, bunu Bakıda keçirilən “TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya Festivalının rəsmi açılış mərasimində çıxış edən Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank deyib.

Onun sözlərinə görə, “TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya Festivalında mükafatları birbaşa olaraq Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim edəcək.

## Şahin Mustafayev Qriqoryanla sərhədin bu hissəsində görüşüb

***Xəbər verdiyimiz kimi, mayın 24-ü Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinləri Şahin Mustafayev və Mqer Qriqoryan arasında Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə Komissiya formatında ilk görüş keçirilib. Sözügedən görüş Ermənistan-Azərbaycan dövlətlərarası sərhədində baş tutub.***

Mqer Qriqoryanın ofisi görüşün məhz hansı ərazidə keçirildiyini açıqlayıb.

Bildirilir ki, Ş.Mustafayev və M.Qriqoryan Arazdəyən yaşayış məntəqəsi (Yerasx) istiqamətində bir araya gəliblər.

Bununla yanaşı, tərəflər arasında növbəti görüşün tarixinin hələ təyin olunmadığı qeyd olunub.

## Xəzərdə zəlzələ oldu

***Xəzər dənizində zəlzələ baş verib.***

”Unikal” xəbər verir ki, bu barədə Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.

Bildirilib ki, zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, yerli vaxtla saat 11:45-də Xəzər dənizində zəlzələ qeydə alınıb.

Qeyd edilib ki, zəlzələnin maqnitudası 3.7, dərinliyi isə 59 kilometr olub.



# İki sabiq nazir müavininin yuxusunu qaçıran yoxlama...

## İntiqam Babayev və İsmayıl İsmayılovla bağlı korrupsiya iddiaları təsdiqləndi, bəs bundan sonra nə baş verəcək?

***Azərbaycanda sabiq iki nazir müavini hüquqi məsuliyyətə cəlb edilə bilər. Söhbət gənclər və idman nazirinin keçmiş müavinləri olan İntiqam Babayevlə İsmayıl İsmayılovdan gedir. Buna səbəb isə Hesablama Palatası tərəfindən Gənclər və İdman Nazirliyi və tabeliyində olan qurumlar (seçmə qaydada) tərəfindən dövlət vəsaitinin və digər dövlət əmlakının idarə olunmasına və istifadəsinə dair auditin nəticələridir.***

Belə ki, audit zamanı məlum nazirlik tərəfindən xarici ölkələrdə təlim-məşq toplantıları və müxtəlif yarışlarda, həmçinin Tokio-2020 Olimpiya oyunlarında iştirakla bağlı, eləcə də müvafiq müraciətlər əsasında federasiyalara ayrılmış vəsaitlər üzərində inzibatçılığın, demək olar, tətbiq edilmədiyi ortaya çıxıb. O da məlum olub ki, vəsaitlərin istifadəsi ilə bağlı hesabatlılıq da təmin olunmayıb. Belə ki, bağlanmış müqavilələr çərçivəsində federasiyalar tərəfindən təsdiqedici və əsaslandırıcı sənədlər bəzi hallarda ümumiyyətlə təqdim olunmayıb, bir sıra hallarda isə düzgün tərtib edilməyib, bəzi hallarda isə təqdim edilmiş sənədlər əsaslı olmayıb. Qeyd edilənlər, eyni zamanda Nazirliyin debitor borclarının da məbləğinin artımına təsir göstərib.Olimpiya və idman komplekslərinin daxilolmalarla bağlı istifadə imkanlarının tam və düzgün reallaşdırılmaması, eləcə də icarə haqlarının aşağı səviyyədə müəyyənləşməsi əlavə gəlirlərin əldə edilməsi imkanlarının məhdudlaşdırmaqla idman komplekslərinin fəaliyyətinin əsasən dövlət büdcəsindən ayrılmış vəsait hesabına təmin edilməsinə səbəb olub. Gənclər siyasətinin həyata keçirilməsi məqsədilə müxtəlif mövzular üzrə layihələrin və tədbirlərin icrası zamanı ilin sonuna istifadə edilməmiş vəsaitin dövlət büdcəsinə geri qaytarılmaması məqsədilə avans məbləği ilə bağlı tələblərə də əməl edilməyib, müqavilə şərtlərinin dəyişdirilməsinə yol verilib, layihələrin və tədbirlərin həyata keçirilməsinə hazırlıq prosesində tələblərin düzgün müəyyənləşdirilməməsi, eləcə də mövcud potensialların dəyərləndirilməməsi əlavə vəsait istifadəsinə şərait yaradıb, bir neçə halda düzgün iddiaçının seçilməməsi layihələr üzrə öhdəliklərin üçüncü tərəfə ötürülməsinə səbəb olub. Nazirlik tərəfindən ictimai birliklər arasında qrant müsabiqələrinin mövzusu olan məsələlərin satınalma müqavilələri vasitəsilə icra edilməsi, o cümlədən ictimai birliklərlə də belə müqavilələr bağlanılması hallarına yol verilib.

Gənclər və İdman Nazirliyi tərəfindən xarici ölkələrdə təlim-məşq toplantıları və müxtəlif yarışlarda, həmçinin Tokio-2020 Olimpiya oyunlarında iştirakla bağlı, eləcə də müvafiq müraciətlər əsasında federasiyalara ayrılmış vəsaitlər üzərində inzibatçılığın təmin edilməməsi İsmayıl İsmayılovu çətin vəziyyətdə qoyur. Çünki o, nazir müavini olarkən məhz xarici ölkələrdə təlim-məşq toplantıları və müxtəlif yarışlara, o cümlədən, Olimpiya oyunlarına hazırlıq prosesini, eləcə də, idman federasiyalarının fəaliyyətini kurasiya edirdi. İndi isə Hesablama Palatasının yoxlaması bu istiqamətdə ciddi nöqsanlara yol verildiyini ortaya çıxarıb. Belə məlum olub ki, ayrılan dövlət vəsaitləri heç də düzgün xərclənməyib. Əslində bunda qeyri-adi heç nə yoxdur. Sözügedən mövzuda ”Unikal” qəzeti olaraq ötən saylarımızın birində ətraflı bəhs etmiş və vurğulamışdıq ki, məsələn, Azərbaycanın şəhər və rayonlarında olimpiya idman kompleksləri inşa edilib, bu komplekslərin tikintisi üçün milyonlarla manat xərclənib. Üstəlik, sözügedən idman qurğularının saxlanılması üçün hər il külli miqdarda vəsait ayrılır. Məqsəd də ölkəmizdə bacarıqlı, qabiliyyətli idmançılar yetişdirmək və onlardan mötəbər turnirlərdə faydalanmaqdır! Lakin Tokio-2020 Olimpiya oyunlarında ölkəmizi təmsil edən yığmanın əksər üzvləri başqa ölkələrdən cəlb edilən və əksəriyyəti uğursuz nəticə göstərən idmançılar - legionerlər idi. Sual olunur: bir halda ki, Azərbaycanın beynəlxalq yarışlarda bu qədər legionerə ehtiyacı var, elə isə olimpiya idman komplekslərinin funksionallığı nədən ibarətdir? Məsələ burasındadır ki,



nazir müavini İsmayıl İsmayılovun kurasiya etdiyi bu idman qurğuları korrupsiya mənbəyinə çevrilmişdi. Misal üçün, həmin komplekslərin saxlanılması üçün tələb olunan büdcə şişirdilir, ardınca ayrılan vəsaitlərin 25-30 faizi geri qayıdır və faktiki olaraq İ.İsmayılovun cibinə gedirdi. Üstəlik, AGİN-in yerli idarələri də adıçəkilən sabiq nazir müavininin nəzarətində idi və oxşar hal həmin idarələrlə bağlı da yaşanırdı. Əvəzində isə əksər olimpiya idman komplekslərinin əksəriyyətinin fəaliyyəti tamamilə iflic vəziyyətinə düşmüşdü, təyinatından kənar fəaliyyət göstərirdi və bəziləri üçün havayı gəlir rolunu oynayırdı. Və elə bütün bunların nəticəsi idi ki, sabiq nazir müavini İsmayıl İsmayılovun ”milyonçular məhəlləsi” kimi tanınan Teymur Əliyev küçəsində, eləcə də digər mərkəzi yerlərdə mənzilləri, Novxanı, Mərdəkan və Şüvəlanın dənizkənarı ərazilərində çoxmilyonluq mülkləri olduğu söylənilirdi. Hətta onun tikinti biznesinin olduğu da kimsəyə sirr deyildi.

Gənclər siyasətinin həyata keçirilməsi məqsədilə müxtəlif mövzular üzrə layihələrin və tədbirlərin icrası üçün ayrılan dövlət vəsaitləri ilə bağlı Hesablama Palatasının aşkarladığı ciddi nöqsanlar isə digər sabiq müavin İntiqam Babayevin başını ağrıda bilər. Belə ki, sözügedən postu tutarkən nazirlikdə QHT-lərlə və idman federasiyalarla işi məhz o kurasiya edib. İntiqam Babayevlə bağlı xoşagəlməz iddialardan biri odur ki, nazirlikdə QHT-lərlə və idman federasiyalarla işi kurasiya edən sabiq müavin hansısa (!) səbəbdən bir neçə deputatın himayəsindəki qeyri-hökumət təşkilatlarını böyük bir ”səxavət”lə maliyyələşdirib. Bundan başqa, Babayev vəzifədə olarkən ayrı-ayrı şəhər və rayonlarda yaradılan Gənclər Evlərini də nəzarətində saxlayıb, həmin Gənclər Evlərinin fəaliyyətinin maliyyələşdirilməsi adı altında isə böyük məbləğdə pullar ”silinib”.

Sabiq nazir müavini vəzifədə olduğu müddətdə özünə dəbdəbəli həyat və geniş biznes qurmağa nail olub. Belə ki, onun paytaxtın ”milyonçular məhəlləsi” kimi tanınan Teymur Əliyev küçəsində, eləcə də digər mərkəzi yerlərdə mənzillərinin, Novxanıda təmtəraqlı villasının olduğu deyilir.

İ.Babayevin barəsində korrupsiya iddialarına ən parlaq nümunələrdən biri isə 2018-ci ildə Gənclər və İdman Nazirliyi Qəbələ rayonunda ənənəvi keçirilən “Tarixin Canlı Səhifələri” adlı festival idi. Tarixi səhnələrin canlandırılması ilə müşayiət olunan genişmiqyaslı tədbirin təşkilatçısı kimi rəsmi sənədlərdə 25 yaşlı Tərxan Əhmədzadə göstərilib. Festivalın keçirilməsi üçün nazirlik həmin şəxsə 400 min manat büdcə ayırıb. Lakin sonradan Tərxan Əhmədzadə nə Qəbələ rayonunda keçirilən festivaldan, nə də bunun üçün ayrılan böyük məbləğdə vəsaitdən məlumatı olduğunu deyib!

Bütün bunları, eləcə də, Hesablama Palatasının audit nəticələrini nəzərə aldıqda həm İ.Babayevin, həm də digər sabiq müavinin - İ.İsmayılovun bir müddət əvvəl vəzifələrindən kənarlaşdırılması təəccüblü görünmədiyi kimi, onların fəaliyyəti dövründə yol verdikləri ciddi nöqsanlara görə qanunlar qarşısında cavab verməsi də sürpriz qarşılanmayacaq.

***Toğrul Əliyev***

# Əli Abdullayevin vəzifəsiz qalmasının pərdəarxası

## Sabiq birinci müavinlə bağlı son bir ildə çoxsaylı iddialar ortaya çıxmışdı

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, ölkə başçısının sərəncamı ilə rəqəmsal inkişaf və nəqliyyat nazirinin birinci müavini vəzifəsi ləğv edilib, bu səbəblə də həmin vəzifəni icra edən Əli Abdullayev artıq nazirlikdə işləmir.***

Bu xəbər geniş müzakirələrə səbəb oldu - Əli Abdullayevin gözlənilməz şəkildə işsiz qalmasının səbəbi nədir görəsən?

Yuxarıdakı suala cavablar müxtəlifdir. Bəzi iddialara görə, Abdullayev rəqəmsallıq və nəqliyyat sahələrinə yad fiqur olduğu üçün vəzifəsini itirib. Belə ki, o, zifəni tutduğu Dövlət Əmlakının İdarə Olunması və Özəlləşdirilməsi Departamenti də xatırladaq ki, Əmlak Məsələləri Dövlət Komitəsi həmin vaxt kimi İqtisadi İnkişaf Nazirliyinin tərkibində fəaliyyət göstərirdi...

F.Əliyevin həbsindən sonra Ə.Abdullayevin vəzifədə qalması isə başqa bir nüfuzlu yerlisi Kərəm Həsənovla yaxın münasibətlər qurması ilə izah olunur. Tədricən əlaqələrini genişləndirən Abdullayev onun üçün tamamilə yad bir sahəyə keçib, qısa müddətdə isə rəqəmsal inkişaf və nəqliyyat nazirinin birinci müavini postunadək yüksələ bilib. Lakin nazirlik daxilində yüksək texnologiyalar nazirinin birinci müavini Əli Abdullayevə verdiyini deyib. L.Nəbiyev qeyd edib ki, pulu verən zaman Əli Abdullayev Əmlak Məsələləri Dövlət Komitəsində çalışırmış. O, tələb edilən pulların Əli Abdullayevdə olduğunu da söyləyib. Lakin sabiq birinci müavin barəsində səsləndirilən və yerli KİV-də geniş yer alan həmin ittihama münasibət bildirməyib.

Bundan başqa, ötən il Ə.Abdullayevin Çex Respublikasının paytaxtı Praqada, Ruzova 947/8 ünvanında hüquqi qeydiyyatda olan AIM BOHEMİA S.R.O şirkətinin həmtəsisçisi olduğu barədə də



vaxtilə artıq ləğv edilmiş Əmlak Məsələləri Dövlət Komitəsində Hüquq şöbəsinin müdiri, bundan sonra isə Hərracların Təşkili üzrə Auksion Mərkəzinin baş direktoru vəzifələrində işləyib.

Həmin vaxt bildirilirdi ki, Ə.Abdullayevin daşınmaz əmlak sektorundan başlayan sürətli yüksəlişi sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin adı ilə bağlıdır. Bu iddia bir neçə səbəblə əsaslandırılırdı. Əvvələ qeyd edilirdi ki, Abdullayev eks-nazirin yerlisidir. Keçmiş birinci müavinin atası İzzət Abdullayev Cəlilabadda tanınmış adam olub. Ötən əsrin 70-ci illərində bu rayonun İcraiyyə Komitəsinə rəhbərlik edib. Sonralar Biləsuvar və Cəlilabad rayonlarında məsul vəzifələrdə işləyib. Respublikanın əməkdar mühəndisidir. Bundan başqa, Fərhad Əliyevlə dostluq münasibətləri varmış. Elə oğlunun sürətli karyera yüksəlişi də bu dostluq sayəsində mümkün olub. Belə ki, Ə.Abdullayev ali məktəbi bitirən kimi yüksək vəzifəyə təyin edilib. Təsadüfi deyil ki, həmin və- də onunla bağlı ciddi narazılıqlar, giley-güzarlar olduğundan həmin post ləğv edilib, Abdullayev isə işsiz qalıb.

Başqa bir iddiaya görə, sabiq birinci müavinin vəzifəsini itirməsi barəsində yerli mediada çoxsaylı tənqidi materialların yer alması, onun adının ən müxtəlif qalmaqallarda hallanmasıdır. Mətbuata sızan və məhkəməyə gedib çıxan həmin qalmaqallardan biri aylar öncə yaşanmışdı. Belə ki, uzun müddət Bakı Apellyasiya Məhkəməsinin və son olaraq Suraxanı rayon Məhkəməsinin hakimi olmuş Lətif Ədil oğlu Nəbiyev külli miqdarda dələduzluqda ittiham edilib. Cinayət işi üzrə isə iki nəfər zərərçəkən şəxs qismində tanınıb. Məhkəmə iclaslarından birində L.Nəbiyev pulları "indiki nazir müavinlərindən birinə verdiyini" deyib. Daha əvvəl günahını etiraf etməyən və özünü qətiyyən təqsirli bilməyən L.Nəbiyev sonuncu məhkəmə iclasında Azad İbrahimovdan alınan 250 min dollara yaxın pulu o vaxtkı adı ilə Rabitə məlumat yayılmışdı. Bildirilirdi ki, həmin şirkət 2008-ci ilin iyun ayında Praqa Bələdiyyə Məhkəməsində qeydiyyatdan keçib, fəaliyyət sahəsinə mülk və digər daşınmaz əmlak növlərinin kirayəsi daxildir.

Ə.Abdullayev şirkəti təsis edərkən Dövlət Əmlak Komitəsi yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzinin baş direktoru vəzifəsində işləyirmiş. Onun şəriki Cəfərova Həcər Vaqif qızı isə 2001-2011-ci illərdə İqtisadi İnkişaf Nazirliyində ümumi işlər və kadr məsələləri üzrə şöbənin rəisi olub. Çexiyadakı şirkətdə ortaqların hər biri 50 faiz paya malikdir.

Sabiq birinci müavin barədə ard-arda yayılan bu məlumatlardan sonra onun birinci müavin postundan kənarlaşdırılacağına dair məlumatlar mətbuatda geniş yer alırdı. Nəhayət ki, gözləntilər doğruldu və Ə.Abdullayev postunu itirdi. Onun hazırda harada və nə işlə məşğul olduğu barədə isə hələlik heç bir bilgi yoxdur...

***Toğrul Əliyev***

# Rövşən Rzayevlə Almaniya səfiri Şuşada




***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevlə Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərinə səfər ediblər.***

"Unikal" xəbər verir ki, səfər zamanı qonağı Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov müşaiyət edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində həyata keçirilən dövlət siyasəti haqqında qonağa ətraflı məlumat verilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu siyasətin aparılmasında mühüm xidmətləri qeyd edilib.

Azərbaycanın 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistanın işğalına son qoyduğu, məcburi köçkünlərin öz yurdlarına qayıtmasına imkan yarandığı, dövlətimizin başçısının tapşırıqları əsasında, onların könüllü, ləyaqətli və təhlükəsiz qayıdışının təmin olunması üçün zəruri tədbirlər görüldüyü diqqətə çatdırılıb. Səfir Maniq bütün köçkünlərin geri qayıtmasının regionun bütün sakinləri üçün dinc və səmərəli birgə yaşayışa qapı açacağına ümid etdiyini bildirib.

Səfər zamanı Şuşa və onun tarixi haqqında almaniyalı səfirə ətraflı məlumat verilib. Qeyd edilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. İşğaldan azad edildikdən sonra Şuşada genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. Bildirilib ki, infrastrukturun yenidən qurulması ilə yanaşı, şəhərin tarixi siması və mədəniyyət abidələri də bərpa olunur. Etnik alman olan, Şuşa şəhərindən məcburi köçkün İrma Veberin dərs dediyi 1 nömrəli məktəbdə həyata keçirilən yenidənqurma ilə də tanış olub.

Səfir Şuşaya səfərin təşkilinə görə təşəkkür bildirib, şəhəri, Cıdır düzünü çox bəyəndiyini qeyd edib, imkan yarananda, yenidən buraya səfər edəcəyini deyib.

# AQC-nin rəhbər heyətinə təyinatlar

***Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) ötən həftə baş tutan hesabat-seçki konfransında seçilmiş İdarə Heyətinin ilk iclası keçirilib.***

Qurumun İctimaiyyətlə Əlaqələr Departamentindən Modern.az-a verilən məlumata görə, iclası giriş sözü ilə açan AQC sədri Vüqar Oruc konfransın nəticələri və görüləcək işlərlə bağlı məruzə ilə çıxış edib.

Daha sonra cəmiyyətin rəhbər strukturları formalaşdırılıb. AQC sədri Vüqar Orucun sərəncamı ilə Ramil Osmanlı, Zamin Hüseynov və Fərid Rüstəmov cəmiyyətin sədr müavinləri, Elnur Əsədov Təşkilat, Pərviz Qulami İctimaiyyətlə Əlaqələr, Şükür Hüseynov Hüquq və qiymətləndirmə standartları, İbrahim Quliyev Təlim, tədris və sertifikatlaşdırma departamentlərinin, Rəşad Əliyev isə Ekspertiza Mərkəzinin rəhbərləri vəzifələrinə irəli çəkilib.

Eyni zamanda qurumun sabiq sədri Nüsrət İbrahimov sədrin müşaviri təyin olunub. İclasda AQC-nin gələcək fəaliyyət istiqamətləri ilə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub. AQC sədri Vüqar Oruc Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin strateji fəaliyyət planın hazırlanacağını və növbəti iclaslarda müzakirəyə çıxarılacağını diqqətə çatdırıb.

## Sabir Yaqubovun "Ömrüm bir kitabdır" adlı romanı çap olundu



***Şərqi Zəngəzurun Qubadlı rayonunda anadan olmuş ictimai-siyasi xadim, istedadlı yazıçı, filoloq və politoloq "Qızıl qələm" mükafatı laureatı, AJB-nin üzvü Sabir Ağakişi oğlu Yaqubovun yeni kitabları işıq üzü görüb.***

"Unikal" xəbər verir ki, S.Yaqubov sağlığında "Nahaq qan", "Qisas", "Qaranlığın gözləri" adlı kitabların və müxtəlif vaxtlarda mətbuatda çap olunmuş xeyli sayda hekayə və novellaların, portret oçerklərin və digər publisistik yazıların müəllifi olub, oxucuların sevgi dolu rəğbətini qazanıb. Dünyasını dəyişəndən sonra (18.01.2019) Sabir Yaqubovun çap olunmasını gözləyən uç kitabından ikisi işıq üzü görüb.




1. "İllərdən qalan izlər" (şeirlər - 2021) kitabında yazarın müxtəlif illərdə sənətkarlıqla qələmə aldığı əsərləri öz əksini tapmışdır.

2. "Ömrüm bir kitabdır" (xatirə - roman 2022) Sabir Yaqubovun ömür səhifələrinin xatirəsidir. Uşaqlığının, gəncliyinin, ahıl çağının yaddaşıdır.

Sabir Yaqubov diplomatik fəaliyyətinə görə "Rəşadətli əməyə görə"medalına layiq görülüb.

## Hərbi Hava Qüvvələrimiz beynəlxalq təlimdə

***Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anatolian Phoenix-2022" beynəlxalq axtarış-xilasetmə təlimində qarşıya qoyulan tapşırıqlar uğurla icra edilib.***




Müdafiə Nazirliyindən "Unikal"a verilən xəbərə görə, təlim çərçivəsində tapşırıqların xəritə üzərində dəqiqləşdirilməsi və hədəf hesabatı, paraşüt hazırlığı üzrə çalışmalar, helikopterlərlə təlim uçuşları və senariyə uyğun olaraq qəza etmiş aviasiya vasitəsi ekipajlarının axtarış-xilasetmə əməliyyatları yerinə yetirilib.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Ramiz Tahirov təlimin "Yüksək səviyyəli müşahidəçi günü"ndə iştirak edib.

Azərbaycan HHQ-nin hərbi qulluqçuları ilə görüşən nazir müavini şəxsi heyətin peşəkarlıq səviyyəsini yüksək qiymətləndirib.

# 109 il öncənin "Məktəb"i yenə Sabirlə ziyalandı

*(Mirzə Ələkbər Sabir-160)*

***Böyük Azərbaycan şairi və mütəfəkkiri M.Ə.Sabirin anadan olmasının 160 illiyi ərəfəsində "Mütərcim" nəşriyyarı "Məktəb" jurnalının qüdrətli söz ustasına həsr edilmiş xüsusi nömrəsini oxuculara təqdim etmişdir. 1913-cü ildə şairin vəfatının 2-ci ildönümünə həsr olunmuş məqalə və şeirlərdən ibarət həmin xüsusi buraxılışın transliterasiyasını BSU-nun doktorantı Fərqanə Mehdiyeva hazırlayaraq "Məktəb" jurnalı haqqında xüsusi məqalə ilə birlikdə çap etdirmişdir. Buraxılışın redaktoru BDU-nun Mətbuat tarixi kafedrasının müəllimi Samir Xalidoğludur. Filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli nəşrə giriş sözü yazmışdır.***

***

Milli oyanış, humanizm, müsbət ideallar və demokratik dəyərlərin fədakar carçılarından olan M.Ə.Sabir milli ədəbiyyatımızda təkcə satirik poeziya və tənqidi realizmin klassik nümayəndəsi deyil, həm də bir-birindən gözəl uşaq şeirlərinin müəllifi kimi tanınır. O, yüksək pedaqoji təcrübəsi və duyumu olan bir müəllim kimi uşaqların psixilogiyasına, onların maraq dünyasına gözəl bələd idi və bu səbəbdən də yazdığı bir-birindən gözəl şeirləri bu gün də sevilə-sevilə oxunur. Azərbaycan uşaq ədəbiyyatının nadir incilərindən olan "Yaz günləri", "Məktəb şərqisi", "Uşaq və buz", "Cütcü" kimi şeirlər M.Ə.Sabirin yüksək müşahidə qabiliyyətindən, onun uşaq psixologiyasına necə dərindən bələd olmasından, uşaqlar üçün maraqlı görünən mətləb və situasiyaların necə incə bir dildə və məharətlə ifadə etməsindən xəbər verməklə yanaşı, həm də insanları düşünməyə, etdikləri əməldən nəticə çıxarmağa səsləyir.




dəyər vermələrinin nəticəsi idi ki, jurnalın elə ilk nömrələrindən başlayaraq M.Ə.Sabir irsi onun səhifələrində təbliğ edilirdi. Şairin "Məktəblilərə töhfə" silsiləsindən yazdığı şeirlərin böyük əksəriyyəti ("Məktəb uşaqlarına töhfə", "Məktəbə təbliğ", "Uşaq və buz", "Yaz günləri", "Qarğa və tülkü", "Təbib və xəstə", "Camuşçu və sel" və s.) 1911-1913-cü illərdə "Məktəb" jurnalında təkrar çap olunmuşdur.

Bundan başqa "Məktəb"çilər M.Ə.Sabirin vəfatının iki illiyi münasibətilə (1913-cü il, 12 iyul, 11-ci nömrə) jurnalın xüsusi buraxılışını hazırlamışlar. Həmin nömrədə şairin geniş bioqrafiyası, yaradıcılığı və millətə xidmətləri haqqında geniş məlumat verildiyi üçün çox qiymətli elmi mənbə sayıla bilər. Bunu nəzərə alan "Məktəb" jurnalının tədqiqatçısı, doktorant Fərqanə Məlikova xeyirxah və gərəkli bir təşəbbüs göstərərək həmin xüsusi nömrənin transliterasiya edərək çap üçün hazırlamışdır.

M.Ə.Sabirin əbədiyyətə qovuşmasının ikinci ildönümünə həsr olunmuş "Məktəb"in həmin xüsusi buraxılışı pedaqoq Əbdürrəhman Tofiq Əfəndizadənin "Ə.Sabir" məqaləsi ilə açılır. Burada "Mərhum Ə.Sabirin tərcümeyi-halı" ilə bağlı geniş məqalə, A.Səhhətin "Sabir" şeiri, M.Ə.Sabirin "Yalançı çoban", "Oxutmuram, əl çəkin" şeirləri, digər məlumatlar və sonda bütün nömrələrdə ənənəvi olaraq verilmiş "Lüğəti-məktəb"

"Hər işin ibtidasi tərbiyədir" deyən böyük şairimizin uşaqların təlim-tərbiyəsi üçün valideynlərlə müəllimlərin vəhdət halında çalışmalarını vurğulayırdı. Sabir istər satirik dillə, istərsə də sadə şəkildə yazdığı şeirlərində uşaqların layiqli vətəndaş kimi yetişmələri üçün onlara xüsusi həssaslıq, qayğı və diqqətlə ya-



Nömrə 11 — Məktəb — səhifə 2

№ 11. Суббота, 12 июля 1913 г. III г. Издания şənbə, 20 şabanülmüəzzəm 1331

Выходить два раза в месяць

**Məktəb şagirdlərinə məxsus iki həftədə bir dəfə nəşr olunan əxlaqi, ədəbi, fənni müsəvvər məcmuədir.**

**Məhəlli idarə**
Редакция журнала «Мектебь» Баку, Мирза-заде

**Mündəricat:**

1) Ə.Sabir ............ Ə.Tofiq
2) Ə.Sabirin tərcümeyi-halı ............
3) Sabir! ... (mənzum) ........ A.Səhhət
4) Yalançı çoban .. (mənzum) ... Ə.Sabir
5) Tarixi fəqərələr ............ Məhəmməd Əmin Əfəndizadə
6) Yedici tülkü ............ müəllim: Əli Məhəmməd
7) Oxutmuram əl çəkin ......... Ə.Sabir
8) Zülmün cəzası ............ müəllim: Bünyadzadə
9) Mütəfərriqə ............
10) Məlumat ............
11) Lətifə ............
12) Məsələlər ............
13) Lüğəti-məktəb ............

17

naşır, gənc nəslin cəhalət qurbanı olmaması üçün təhsilin vacibliyi fikrini dönə-dönə vurğulayırdı. Diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, ümumiyyətlə maarifçi və inqilabi-demokratik ədəbi cərəyanın görkəmli nümayəndələrindən olan M.Ə.Sabirin əsərlərinin çox hissəsi məktəb, maarif məsələlərinə həsr olunmuş, onlarda uşaqların milli ruhda tərbiyələnməsi, onlara müsbət əxlaqi-mənəvi vərdişlərin aşılanması tərənnüm edilmişdir.




M.Ə.Sabirin ilk uşaq şeiri olan "Məktəb şərqisi" mətbuat tariximizdə önəmli yer tutan "Dəbistan" jurnalının 17-ci nömrəsində (1907) çap olunmuşdur. Şairin məktəbi cənnətə bənzədən, elmə-bilik ocağına tükənməz sevgi aşılayan bu şeiri uşaqların sonradan sevə-sevə oxuduqları, dillər əzbəri olan şeirlərindən idi.

Həmin dövrdə ağır xəstə olmasına baxmayaraq qüdrətli şair zamanın tələini, elm-maarifin millətə faydasını nəzərə alaraq uşaqların yaş və qavrayış səviyyəsinə uyğun olan, onların ruhunu oxşayıb zəkalarını işıqlandıracaq şeirlər yazırdı. Buna görə də həmin dövrün mətbu orqanları, o cümlədən uşaq nəşrləri M.Ə.Sabir yaradıcılığına böyük diqqət yetirir, onun şeirlərini təbliğ edirdilər. Bu nəşrlər içərisində "Məktəb" jurnalını ayrıca qeyd etmək olar. Böyük şairin vəfatından bir neçə ay sonra nəşrə başlamış bu jurnal öz səhifələrində mütəmadi olaraq Sabir yaradıcılığına geniş yer verir, şeirlərini təkrar-təkrar nəşr edirdi. Jurnal Mirzə Ələkbər Sabirin xatirəsini əziz tutmağı özünə bir növ mənəvi borc bilirdi.

Azərbaycan uşaq mətbuatının xüsusi mərhələsi sayılan "Məktəb" jurnalının yaradıcı heyətinin böyük Sabirə yüksək

yer alıb. Jurnalda Ə.Tofiqin ürək yanğısı ilə qələmə aldığı giriş yazısı xüsusilə diqqəti cəlb edir. Müəllif məqaləsində bu incə məqamı xüsusi vurğulayır: "Sabir bizim o qədər böyük bir şairimizdir ki, ondan sonra, onun yerinə gələn hənuz yoxdur. Mərhumun böyüklüyü orasındadır ki, o, şeirimiz üçün başqa bir yol, tazə bir




cığır açdı. Öz vəqtindəki şairlərə bu yolu göstərdi. Onlara bu yolda ustad oldu. Göstərdiyi yol isə çox aydın və qayət də doğru olduğu üçün hər kəs; dayanmaqsızın qəbul etdi. Sabir budur".

Təkcə Azərbaycan ədəbiyyatında deyil, elə dünya ədəbiyyatında da mənfi tipləri öz dili ilə danışdırmaq üslubunun ən qüdrətli nümayəndələrindən olan M.Ə.Sabirin 160 illik yubiliyi ölkəmizin ədəbi-mədəni həyatında əlamətdar hadisədir. Və biz bu hadisəyə "Məktəb" jurnalının şair haqqında xüsusi nömrəsini çap etməklə töhfə vermiş M.Fərqanəyə "sağ ol" deyir və bu addımı böyük şairimizin ruhuna ehtiram və Sabirsevərlərə gözəl hədiyyə kimi qiymətləndiririk.

***Qulu MƏHƏRRƏMLİ,***
***filologiya elmləri doktoru, professor***

## 6.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ailə cəmiyyətin təməlidir

### Mehriban Zeynalova: “”Qloballaşan dünyada müasir dövrün tələbləri ilə ayaqlaşmaqla yanaşı, ailə dəyərlərini də qoruyub saxlamaq lazımdır”



***Ailə cəmiyyətin əsas sütunudur. Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri də, ailə siyasətidir. Cəmiyyətin diqqətinin ailə məsələlərinə yönəldilməsi, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi istiqamətində mütəmadi iş aparılır. Gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə dözümlülük mədəniyyətinin təbliği istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir.***

Bu günlərdə 15 may- Beynəlxalq Ailə Günü ilə əlaqədar olaraq ”Ailə festivalı” keçirilib. Avropa İttifaqının maliyyə dəstəyi, BMT-nin Əhali Fondu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və “Regional İnkişaf” İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən festivalın əsas məqsədi oğlanlara üstünlük verilməsi fenomeninin qarşısının alınması, qız övladının dəyərinin təbliği və ailədə bərabər qayğı modelinin təbliğinə xüsusi diqqət yetirməklə gender stereotipləri ilə mübarizəyə töhfə verməkdən ibarətdir.

Artıq Azərbaycanda 2007-ci ildən ailə günü bayram kimi qeyd olunur. Ailə günü hər birimizin, bütövlükdə dövlətin, cəmiyyətin diqqətini ailə məfhumuna, ailə institutuna yönəltmək məqsədi daşıyır.

”Ailə festivalı”nda çıxış edən Bahar Muradova da bildirib ki, Azərbaycan dövləti ailə istiqamətindəki siyasətini daha da təkmilləşdirir və bu siyasət yalnız ailələrimizin rifahı, inkişafı, sağlamlığı, təhlükəsizliyinə xidmət edir. O, bildirib ki, bu məsələ dövlət orqanları ilə yanaşı bütün ailələrimizin, cəmiyyətimizin, medianın və vətəndaş cəmiyyətinin birgə işidir. Bahar Muradova Dövlət Komitəsinin cəmiyyətin müxtəlif təbəqələri ilə birlikdə ailə məsələlərini daim gündəmdə saxladığını, onların üzləşdiyi çətinlikləri aradan qaldırmaq istiqamətində işlər gördüyünü, yerli və beynəlxalq tərəfdaşlarla müxtəlif mövzuda layihələr həyata keçirdiyini əlavə edib.

Qurumdan bildirilib ki, hər il Azərbaycanda “Ailə Günü” ərəfəsi müxtəlif tədbirlər həyata keçirilir. “Azərbaycan ailə modelinin inkişaf strategiyası” adlı konfransda bu qəbildəndir.

Konfransın əsas məqsədi ailə məsələləri mövzusunda ictimai müzakirələrin təşkili, həmçinin müasir cəmiyyətdə sağlam ailə modelinin, ailə institutunun formalaşmasına yönəlmiş effektiv mexanizmlərin yeni formatlarının müzakirəyə qoyulmasıdır.

Qeyd edək ki, Azərbaycanın ailə modeli hər zaman örnək göstərilib. Ölkəmizdəki ailə institutu, ailə dəyərləri nümunə göstərilir. Çox təəssüf ki, son illər uzunömürlülüyü ilə örnək göstərilən Azərbaycan ailələrində də dəyərlərdə aşınma var.

Statistik göstəricilərə əsasən, hazırda Azərbaycanda 2 milyondan çox ailə mövcuddur. 2021-ci il ərzində ölkədə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 56 314 nikah və 17 191 boşanma halları qeydə alınıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 2020-ci ilə nisbətən 60 faiz artaraq onun səviyyəsi 5,6, boşanma səviyyəsi isə 13,3 faiz artaraq 1,7 təşkil edib. Nikah səviyyəsi Bakı şəhərində, Şəki-Zaqatala, Dağlıq Şirvan, Qarabağ və Quba-Xaçmaz iqtisadi rayonlarında və Naxçıvan Muxtar Respublikasında, boşanma səviyyəsi isə Bakı şəhərində, Abşeron-Xızı, Gəncə-Daşkəsən və Şərqi Zəngəzur, Qarabağ iqtisadi rayonlarında ölkə göstəricilərindən yüksək olub. Cari ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 9606 nikah və 2505 boşanma halı qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 3,5-dən 5,9-a qədər artıb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə qalıb.

Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova “Unikal”a deyib ki, ailələrin dağılması ən müxtəlif səbəblərdən baş verir. Nikahın pozulmasının qeydə alınması zamanı əsasən vətəndaşlar xasiyyətlərinin tutmaması, uşaqlarının olmaması, ailədaxili zorakılıq, xəyanət, qısqanclıq, xəstəlik, milli zəmin, sərxoşluğa, narkomaniyaya aludəçilik, maddi durum, mənzilin olmaması, ərin (arvadın) əlilliyi, uzun müddət ayrı yaşamaq, oğurluq və kənar müdaxilələri səbəb kimi göstərirlər.

Amma bu gün məişət zorakılığı ailələrin dağılmasının əsas səbəbidir. İkinci yerdə isə pis vərdişlərə aludəçilik dayanır. Ekspert deyir ki, ailələrin dağılmasının bir əsas səbəbi də sonsuzluqdur. Çünki, Azərbaycan ailələri özlərini övladsız təsəvvür etmirlər. Hətta boşanmalar da bir çox halda övlad yoxluğu üzündən baş verir.

Həmsöhbətimiz deyir ki, əvvəllər uşaq ailəni qoruyan əsas vasitə hesab olunsa da, müasir dövrdə uşaq da ailələri qırılmaz tellərlə bağlamır.

Ötən ilin statistikasına əsasən, ölkəmizdə 5-dən çox uşağı olan ailələrin sayı 2500-ə yaxındır. Onların uşaqlarının sayı isə 10 mindən çoxdur. Belə ailələrə əlavə güzəştlər də tətbiq olunur.

M. Zeynalova bildirib ki, Azərbaycan ailəsinin tarixən formalaşmış öz adət-ənənəsi var. Amma son illər internet, müasir dünyaya çıxış ailə dəyərlərinə də təsirsiz ötüşməyib. Ekspert deyir ki, qloballaşan dünyada müasir dövrün tələbləri ilə ayaqlaşmaqla yanaşı, ailə dəyərlərini də qoruyub saxlamaq lazımdır. Çünki, cəmiyyətin inkişafında ailə modelinin rolu böyükdür.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Xarici işlər nazirinin müavini Norveçə gedib

***Azərbaycan xarici işlər nazirinin müavini Fariz Rzayev 23-25 may 2022-ci il tarixlərində Norveç Krallığına işgüzar səfər edib.***

Bu barədə “Unikal”a Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) məlumat verilib.

Səfər çərçivəsində Norveç Xarici İşlər Nazirliyinin dövlət katibi Eivid Vad Petersson, Norveç Stortinqi (Parlament) Xarici işlər və müdafiə üzrə daimi komitəsinin sədri Ine Eriksen Soreide, Stortinqin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Ingjerd Schou və ”Equinor” şirkətinin vitse-prezidenti Qustavo Baquero ilə görüşlər keçirilib.

Görüşlər zamanı Azərbaycan və Norveç arasında diplomatik əlaqələrin qurulmasının 30-cü ildönümünün bu işgüzar səfər və mədəni tədbirlərlə birgə qeyd olunması yüksək qiymətləndirilib, müxtəlif sahələr üzrə geniş potensiala malik ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb, XİN-lər və parlamentlərarası müntəzəm dialoqun gücləndirilməsi, münaqişədən sonrakı dövrdə Azərbaycan və Ermənistan arasında gedən normallaşma prosesləri, eləcə də bölgədə regional əməkdaşlığın qurulması istiqamətində irəli sürülmüş təşəbbüslər müzakirə edilib.

Norveç Beynəlxalq Məsələlər İnstitutunun (NUPİ) tədqiqatçıları ilə keçirilmiş dəyirmi masada post-münaqişə dövründə Cənubi Qafqazda gedən normallaşma prosesləri və hazırda aktuallıq kəsb edən beynəlxalq və regional mövzular nəzərdən keçirilib.

Səfər çərçivəsində, Azərbaycan Respublikasının Müstəqillik Günü, eləcə də Azərbaycan və Norveç arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə Oslonun ”Litteraturhuset” Mərkəzində İsfar Sarabski Caz Triosunun konserti və diplomatik qəbul keçirilib.

# Bakıda bu məktəblər distant təhsilə keçir - SİYAHI

***“Formula-1” Azərbaycan Qran-prisi ilə əlaqədar olaraq Bakının bəzi məktəblərində dərslər distant formada keçiriləcək.***

Həmin yarışların hərəkət sxeminə aid olan və Bakı şəhərinin mərkəzi ərazisində yerləşən tam orta məktəblərdə dərslər distant tədrisə keçəcək.

Həmin məktəblərin adını təqdim edirik:

1. Təhsil Nazirliyinin tabeliyindəki 132-134 nömrəli Təhsil Kompleksi;
2. Təhsil Nazirliyinin tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey;
3. Təhsil Nazirliyinin tabeliyindəki İ.Əfəndiyev adına Elitar gimnaziya;
4. Bakı şəhəri 7 nömrəli tam orta məktəb;
5. Bakı şəhəri 2 nömrəli texniki-humanitar lisey;
6. Bakı şəhəri 160 nömrəli Klassik Gimnaziya;
7. Bakı şəhəri 189-190 nömrəli tam orta məktəb;
8. Bakı şəhəri 147 nömrəli texniki-humanitar lisey;
9. Bakı şəhəri 27 nömrəli tam orta məktəb.

Sözügedən məktəblərin distanta keçəcəyi tarix hələ ki açıqlanmayıb.

Qeyd edək ki, Azərbaycan Qran-prisi 10-12 iyunda keçiriləcək.



# Magistraturaya növbəti qəbul imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi mayın 29-da ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanı (II cəhd) keçirəcək.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, imtahan respublikanın 6 şəhər və rayonunda - Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 61 binada təşkil olunacaq.

Hazırda imtahanın idarə olunmasına cəlb olunan əməkdaşların təlimatlandırılması, imtahan binalarının yoxlanılması, zallarda bakalavrların rahat imtahan verməsi üçün zəruri şəraitin yaradılması işləri həyata keçirilir.

İştirakçıların imtahan vaxtını düzgün idarə edə bilməsi üçün Bakı və regionlar da daxil olmaqla bütün imtahan zalları saatla təmin olunub.

İmtahan bütün binalarda eyni vaxtda saat 11:00-da başlanır və 3 saat davam edəcək. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İmtahanda bakalavrların xarici dil üzrə dinləyib-anlama bacarıqları da yoxlanılır. İmtahan dinləmə mətninin səsləndirilməsi ilə başlanır. Mətnin səsləndirilməsinə hazırlıq və binada sakitliyin təmin olunması ilə əlaqədar imtahanın başlanmasına 15 dəqiqə qalmış hər kəs zalda olmalıdır.

İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

Məlumat üçün qeyd edək ki, ərizələrin qəbulu internet vasitəsilə mayın 10-dan 17-dək aparılıb. İmtahanda iştirak üçün 14 843 bakalavr ərizə təqdim edib. Onlardan 13 796 nəfəri Azərbaycan bölməsi, 1047 nəfəri isə rus bölməsi üzrə imtahan verəcək.

İmtahanda 5 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil və hərəkət məhdudiyyətli) bakalavr da iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında ayrıca zallar ayrılıb, gözdən əlillər üçün tapşırıqların oxunması, cavab vərəqinin doldurulması və s. işlər üçün fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli bakalavrların bina və zala daxil olması və rahat şəkildə hərəkəti üçün də xüsusi şərait yaradılıb.

Qəbul imtahanı Bakıda 45, Sumqayıtda 4, Gəncədə 5, Naxçıvanda 2, Mingəçevirdə 3, Lənkəranda 2 binada təşkil olunacaq. Bakıda 11226, Naxçıvanda 525, Gəncədə 1247, Sumqayıtda 1033, Mingəçevirdə 500, Lənkəranda 312 bakalavrın imtahan verəcəyi gözlənilir. İmtahanın idarə olunmasına 61 ümumi imtahan rəhbəri, 174 imtahan rəhbəri, 1380 nəzarətçi-müəllim, 132 buraxılış rejimi əməkdaşı (mühafizə), 61 bina nümayəndəsi cəlb olunacaq.

Ərizə vermiş bakalavrlar imtahanda iştirak etmək üçün mayın 20-dən etibarən DİM-in internet saytına daxil olub "şəxsi kabinet"in istifadəçi adı və parolundan istifadə etməklə "İmtahana buraxılış vərəqəsi"ni çap edirlər. Burada iştirakçının imtahan vərəcəyi şəhər, bina və digər məlumatlar qeyd olunur.

Bakalavrlar imtahana gələrkən aşağıda göstərilən sənədləri mütləq özləri ilə gətirməlidirlər:

- Şəxsiyyəti təsdiqləyən sənədin əslini;
- "İmtahana buraxılış vərəqəsi"ni;

Göstərilən sənədləri arasında uyğunsuzluq aşkarlanan, yaxud həmin sənədlərdən biri olmayan şəxslər imtahana buraxılmayacaq.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə mayın 28-də imtahan mərkəzləri, zallar, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

# Əskişəhərdə Azərbaycan mədəniyyət və incəsənət günlərinin açılışı oldu

***24-25 may 2022-ci il tarixlərində Türkiyənin Əskişəhər Osmanqazi Universitetində 28 May- Müstəqillik günü və Azərbaycan və Türkiyə arasında diplomatik münasibətlərin bərpasının 30 illiyi münasibətilə Azərbaycan Mədəniyyət və İncəsənət Günləri keçirilib.***



"Unikal" xəbər verir ki, mədəniyyət tədbirinin ilk günündə Azərbaycanın Türkiyədəki səfirliyinin, İstanbuldakı Baş Konsulluğunun, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) və Əskişəhər Osmanqazi Universitetinin birgə təşkilatçılığı ilə təşkil olunan proqramın öncəsində səfir Rəşad Məmmədov Universitetin rektoru Kemal Şenocakla görüşüb.

İstanbuldakı Baş Konsul Nərminə Mustafayeva, millət vəkili Fazil Mustafa və UNEC-in prorektoru Gəray Musayevin də iştirak etdiyi görüşdə Osmanqazi Universitetinin rəhbərliyinə proqrama göstərdiyi dəstəyə görə təşəkkür edib, bu kimi tədbirlərin təşkilinin Azərbaycan mədəniyyəti və incəsənətinin qardaş ölkənin gənc nəslinə daha yaxından tanıdılmasına töhfəsi vurğulayıb.

Görüş sonrası Azərbaycan-Türkiyə diplomatik münasibətlərinin 30 illiyini əks etdirən fotosərginin açılışı baş tutub. Azərbaycan Mədəniyyət və İncəsənət Günləri proqramının rəsmi hissəsi çıxışlar ilə başlayıb.

Rəşad Məmmədov çıxış edərək, Azərbaycan - Türkiyə münasibətlərinin xüsusi xarakterini vurğulayıb və bu münasibətlərin türk dünyası üçün önəmini qeyd edib.

Baş konsul Nərminə Mustafayeva bu kimi qarşılıqlı mədəni tədbirlərin keçirilməsinin ikitərəfli əməkdaşlığın daha da inkişafı üçün əhəmiyyətini qeyd edib.

Milli Məclisin deputatı Fazil Mustafa çıxışında münasibətlərimizin tarixinə diqqət çəkərək, Azərbaycan və Türkiyənin hər zaman bir - birini bütün platformalarda dəstəklədiyini qeyd edib.

Əskişəhər Osmanqazi Universitetinin rektoru Kemal Şenocak 44 günlük Vətən müharibəsi və Azərbaycanın qazandığı möhtəşəm zəfəri vurğulayaraq, bunu tariximizin ən parlaq səhifələrindən biri kimi səciyyələndirib.

UNEC - in prorektoru Gəray Musayev çıxışında Azərbaycanda keçirilən təhsil islahatlarına xüsusi yer verib və UNEC-in Türkiyənin ali təhsil müəssisələri ilə əməkdaşlıqda maraqlı olduğunu ifadə edib.

Proqramın bədii hissəsində UNEC - in Yaradıcılıq Mərkəzinin və Türkiyədə fəaliyyət göstərən "Xəzər" Azərbaycan Xalq Rəqsləri Dərnəyinin musiqi qrupları öz çıxışları ilə Azərbaycanın zəngin musiqisini və xalq rəqslərini nümayiş etdirmişlər. Proqram tamaşaçılar tərəfindən maraq və heyranlıqla qarşılanıb.

Sonda yaradıcı heyətə xatirə lövhələri təqdim edilib.

# Vətəni canından əziz bilən qəhraman

***Şamil Afiq oğlu Mirzəyev 24 yaşında Vətən yolunda şəhid olmağı bacardı. Getdiyi bu şərəfli yol ona milyonların qəlbində əbədi yaşamaq səadəti gətirdi. Dağlar diyarı Yardımlıda boya-başa çatan Vətən sevdalısı bu şərəflə bütöv Azərbaycana oğul oldu. İndi hər dəfə Şamilin adı çəkiləndə qəhrəmanlar yetişdirən bir xalqın övladı olmaqla qürur duyuruq. Fəqət, Şamilin ömür yolu qısa olsa da, amma tarixdə adı doğma torpağının müqəddəsliyini uca tutmaq, eləcə insan səadəti naminə bu işıqlı dünyanın qurub-yaradanı kimi qaldı.***



Şamil özünü Vətəninə, xalqına həsr etmək istəyi ilə müstəqil həyata qədəm qoyur. Daxili bir hiss-qurub-yaratmaq həvəsi tez də ona el-oba məhəbbətini qazandırır. Yağı tapdağında olan Vətən torpaqlarının düşməndən təmizlənməsi yeniyetmə oğlanı daha çox düşündürür. İşğal edilən torpaqların hər qarışının qisasını erməni dığalarında qoymamaq üçün ordu sıralarına yola düşür. Cəbhə bölgəsində xidmət edir, ilk günlərdən hərbi təlimlərdə döyüş igidliyinə görə fərqlənir. Onun vətənpərvərliyi, qeyri-adi qabiliyyəti, Vətənə, dosta sədaqəti isə əsgərlərə nümunə olur. Sözün qısası, Şamil əsgəri borcunu şərəflə yerinə yetirib, evə başı uca qayıdır. Təbii ki, erməni cəlladlardan alacağı qisas gününü unutmur.

Vətən müharibəsi başlanan kimi Şamil əlinə silah götürüb düşmənlə ölüm-dirim döyüşünə girir. Hər an Vətən üçün canından keçməyə hazır olan igid oğullarla bərabər erməni quldurlarına endirdiyi sarsıdıcı zərbələr öz nəticəsini verir. Füzulidən başlayaraq Şuşaya qədər min əzab-əziyyətli, ölümlü yollar keçir. Həmişə döyüşün önündə gedir, əzəli, əbədi yurdun daşı, hər cığırı qarışqarış erməni işğalçılardan azad olunca qəlbi Vətən sevgisi ilə döyünən Şamilə yeni bir güc, qüvvə gəlir. Hər döyüşü bir tarix olan Vətən oğlunun arzuladığı qələbə günü gəlir. Qarabağ yağı tapdağından qurtulur. Təəssüf ki, noyabrın 10-da qəfil açılan güllədən özünü qoruya bilmir. Şəhid Şamil azad Vətən səmasının parlaq Günəşinə dönür...

Vətən, torpaq yolunda canını qurban verənlər ölmürlər, onlar əbədi olaraq milyonların qəlbinə köçürlər. Şamildə belə. Dünya durduqca böyük ehtiramla xatırlanacaq Şamil. Dövlət də Şamil Mirzəyevi 44 günlük haqq savaşımızda ermənilərə qarşı qanlı döyüşlərdə göstərdiyi şəxsi igidliyə görə "Vətən uğrunda", "Cəsur döyüşçü", Şuşanın, Füzulinin, Xocavəndin, Cəbrayılın azad olunmasına görə medallarla təltif edibdir.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Bölgələrdə suvarma sitemləri yenilənir

***Neftçalada suvarma sürətlə davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Neftçala rayonunda kənd təsərrüfatının inkişafı artan sürətlə davam edir.***

Rayon ərazisində əkilən müxtəlif növ bitkilərdən hər il bol məhsul əldə olunur. Məhsuldarlığın artması üçün isə suvarma mövsümündə suvarılmanın mütəşəkkil aparılması vacibdir. Bunun üçün Neftçala Suvarma Sistemləri İdarəsi var gücü ilə çalışır. 1978-ci ildən fəaliyyət göstərən idarə Neftçala rayonunun 38158 hektar suvarılan torpaq sahəsinə xidmət edir. Bu işin keyfiyyətli təmin edilməsi üçün 44 nasos stansiyadan və 1394 ədəd hidrotexniki qurğudan istifadə edilir. Suvarma mövsümünə qədər bütün nasos stansiyalarda təmir işləri aparılıb və hər biri saz vəziyyətə gətirilib.



Neftçala rayonunda hazırda 5560 hektarda pambıq aratı aparılıb, 39296 hektarda dənli bitkilər, 8077 hektarda isə yem bitkiləri suvarılıb. 8 ədəd hidrotexniki qurğu təmir edilib, 85 km kanal lildən təmizlənib. Rayonun əsas su mənbəyi olan Kür çayından 83 milyon m3 su qaldırılaraq əkin sahələrinə ötürülüb. Əkin sahələrinin suvarılması üçün nasos stansiyalarla yanaşı 1026 km suvarma kanallarından da istifadə olunur. Suvarma suyunun itkisiz və daha sürətlə su istifadəçilərinə çatdırılması üçün isə latok sistemi yenilənib və bu proses davam edir. Yeni nov kanallar təkcə yeni görkəmi ilə deyil, həmdə suvarma suyunu vaxtında fermerlərə çatdıra bilir.

Qeyd edək ki, Neftçala rayonunda 2022-ci il üçün 38158 hektarda əkin aparılıb ki, bundan da 8700 hektarı pambıq, 21500 hektarı dənli bitkilər, 6221 hektarı yem bitkiləri və 1737 hektar sair əkinlərdir.

Taxtakörpü su anbarı ölkəmizdə mövcud olan ən mühüm hidrotexniki qurğulardandır. Dilqəm Şərifov bildirib ki, Taxtakörpü su anbarı ölkəmizdə mövcud olan ən mühüm hidrotexniki qurğulardandır. Ölkə başçısının sərəncamı və Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə ilə 2007-ci ildə tikintisinə başlanılan anbar çox böyük strateji əhəməmiyyətə malikdir. Belə ki, son illər yay mövsümündə Samur çayında su ehtiyatlarının kəskin azalmasına baxmayaraq Taxtakörpü su anbarına yığılan su hesabına Bakı, Sumqayıt şəhərlərinin, Abşeron yarımadası və ölkənin şimal zonasının kənd təsərrüfatı sahələrinin su təminatında yarana biləcək çətinliklərin qarşısının alınması mümkün olub. Bunu Prezident İlham Əliyev də çıxışı zamanı xüsusi qeyd edib. Ölkə başçısı bildirib ki, əgər vaxtında Taxtakörpü su anbarları inşa edilməsəydi, bu gün meliorasiya sahəsində bizim böyük problemlərimiz ola bilərdi. Su anbarı istifadəyə verildikdən sonra burada 1 milyard 190 milyon kubmetr su toplanıb ki, bunun da 1 milyard 86 milyon kubmetri istifadə edilib. İstifadə olunan suyun 877 milyon kubmetri Bakı, Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının əhalisinin içməli su təchizatına sərf olunub. Respublikamızda içməli su probleminin aradan qaldırılması istiqamətində xüsusi əhəmiyyəti ilə fərqlənən "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində inşa edilən Taxtakörpü Su Anbarının Su Elektrik Stansiyası ilə birgə Taxtakörpü-Ceyranbatan, Vəlvələçay-Taxtakörpü kanallarının tikintisi layihələrinin reallaşdırılması ölkənin sosial-iqtisadi həyatında mühüm əhəmiyyətə malikdir.

Bu hidrotexniki qurğu Azərbaycanda reallaşdırılmış layihələrdən müasirliyi və mükəmməlliyi ilə fərqlənir. Bəndin uzunluğu 1180, hündürlüyü 142,5 metrdir. Sahəsi 8,7 kvadratkilometrə çatan gölün ümumi su tutumu 268,4 milyon kubmetr, faydalı həcmi isə 218,9 milyon kubmetrdir. Su anbarından Taxtakörpü-Ceyranbatan kanalına saniyədə 40 kubmetr su axıdılır, burada quraşdırılan üç turbin vasitəsilə 25 mVt elektrik enerjisi istehsal edilir. Ümumilikdə Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi nəticəsində Sumqayıt şəhəri, Abşeron yarımadası, xüsusən də Bakıətrafı kənd və qəsəbələrə saniyədə 18 kubmetr suyun verilməsinə imkan yaranıb. Beləliklə, əhalinin içməli suya, eləcə də suvarma və texniki suya olan tələbatı tam yaxşılaşıb. Suyun öz axını ilə Ceyranbatan su anbarına verilməsi nəticəsində 167 milyon kilovat-saat elektrik enerjisinə və 15 milyon manata qədər maddi vəsaitə qənaət edilir. 2013-cü ildə istifadəyə verilən su anbarının sayəsində Sumqayıtın, Bakı və Bakıətrafı qəsəbələrin suya olan ehtiyacı daha yaxşı ödənilib, regionun fasiləsiz elektrik enerjisi ilə təminatına əsaslı zəmin yaranıb, başqa sözlə desək, Taxtakörpü su anbarı bu yerlərə yeni həyat gətirib.

Cəbrayıl Suvarma Sistemləri idarəsi ümumilikdə 4809 hektar sahəyə xidmət edir. Dilqəm Şərifov bildirib ki, Cəbrayıl Suvarma Sistemləri idarəsi xidmət etdiyi ərazilərdə suvarma işlərinin yaxşılaşdırılması üçün bir sıra işlər görülüb. Belə ki, hidrotexniki qurğular sazlanıb, suvarma və kollektor kanalları lildən təmizlənib. Yaz tarla işləri üçün suvarma qrafiki tərtib edilərək növbəlilik prinsipinə uyğun olaraq işlər yerinə yetirilir

Cəbrayıl Suvarma Sistemləri idarəsi ümumilikdə 4809 hektar sahəyə xidmət edir. Yem bitkiləri, taxıl, pambıq, tut bağı, çuğundur, həyətyanı və örüş sahələrindən ibarət olan bu ərazilərin su təminatı 5 ədəd nasos stansiya vasitəsilə həyata keçirilir. 1 ədəd nasos stansiya rayonun Cocuq Mərcanlı kəndində 417 hektar, Füzuli rayonun Mirzənağılı və Qazaxlar kəndində isə 280 hektar sahəni su ilə təmin edir. Stansiya Araz çayından idalanır bunun üçün uzunluğu 4.2km olan qol araz açyından çəkilərək stansiyaya birləşdirilib.

Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış 11 ədəd qəsəbələrdə isə 4 ədəd nasos stansiya 4112 hektar sahəyə xidmət göstərir. Xidməti sahədə Ümumilikdə, 99.40 km suvarma kanalları mövcuddur ki, bunun 16.4 km qapalı şəbəkə, 83.0 km açıq suvarma kanallarıdır. Açıq kanalların 33.2 km beton, 49.8 km torpaq tiplidir. 507 ədəd hidrotexniki qurğu vardır.. Cari il idarə tərəfindən taxıl, pambıq, şəkər çuğunduru, yem bitkiləri sahələrinin və hektar həyətyanı sahələrin suvarılmasını təmin edilir.

İdarədən verilən məlumata görə suvarma işi üçün fəaliyyət göstərən nasos stansiyalardan ikisi 3 aqreqatlı, ikisii isə 2 aqreqatlıdır, 1 stansiya isə 1 aqreqatla faəliyyət göstərir. Hər il olduğu kimi, bu ildə də nasos stansiya aqreqatlarının işçi hissələri yenisi ilə əvəzlənib, aqreqatlar, hidrotexniki qurğular, maşın və mexanizmlər cari və ya əsaslı təmir olunub, kanal və kollektorlar lildən təmizlənir. İlin 1-ci rübündə suvarma kanalları və kollektor sistemi plana uyğun olaraq lildən təmizlənib, hidrotexniki qurğularda cari təmir işləri görülüb.

***Hüseyn İsgəndərov***



## MEDİA Agentliyi ənənəvi mediadan yeni mediaya keçid prosesini beynəlxalq ekspertlərlə müzakirə edib

***Mayın 26-da ADA Universitetində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və beynəlxalq ekspertlərin iştirakı ilə "Ənənəvi mediadan yeni mediaya keçid: Qlobal trendlər və hədəflər" mövzusunda dəyirmi masa keçirilib.***

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun moderatorluğu ilə keçirilən dəyirmi masada Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attar, Türk Dövlətləri Təşkilatının mətbuat katibi Qəhrəman Halisçəlik, "Sabah" qəzetinin əməkdaşı Mahmud Övür və "Star" qəzetinin köşə yazarı Ardan Zentürk çıxış ediblər.

Dəyirmi masada Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda media sahəsində aparılan islahatlar barədə danışıb. Bildirib ki, çağdaş Azərbaycan oxucusunun keyfiyyətli kontentlə təmin olunması üçün bütün digər media subyektləri kimi qəzetlər də inkişaf etməlidir. Vurğulanıb ki, MEDİA Agentliyi çap mediasının onlayn formata keçidinin təmin edilməsi məqsədilə Azərbaycanda ilk dəfə olaraq müxtəlif qəzet və dərgilərin elektron versiyasının yerləşdiriləcəyi "E-köşk" platformasının yaradılması prosesini başa çatdırmışdır. İcraçı direktor bildirib ki, dövlət dəstəyinin məqsədi çap mediasının yalnız biznes strukturu kimi formalaşmasına yardım etmək deyil, texniki imkanlar baxımından onlayn media ilə bərabər olmayan rəqabət şəraitində ciddi fikir tribunası kimi qəzetlərin ayaqda qalmasına kömək göstərməkdir. Başqa sözlə desək, dövlət yazılı medianın timsalında Azərbaycan dilinin inkişafına, ənənəvi publisistik düşüncənin yaşamasına və eyni zamanda cəmiyyətdə plüralizmin möhkəmlənərək sərhədlərinin genişlənməsinə dəstək göstərir.

Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attar 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qalib mediasının önündə yeni vəzifələrin olduğunu bildirib, qalib medianın inkişafını təmin etməyin vacibliyini vurğulayıb.

Dəyirmi masada müzakirəyə qatılan Türkiyədə akkreditasiyadan keçmiş beynəlxalq media subyektlərinin təmsilçiləri medianın müasir trendləri ilə bağlı fikirlərini bildirib və Türkiyə təcrübəsindən çıxış edərək rəqəmsal media mühitinə keçidlə bağlı düşüncələrini bölüşüblər.



## Baydenin Azərbaycana səfir namizədi kimdir? - DOSYE

***ABŞ Prezidenti Co Bayden Azərbaycana səfir namizədini açıqlayıb. Bayden Mark Libbinin ABŞ-ın Bakıdakı səfiri postuna namizədliyini irəli sürüb.***

ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenbergerin səlahiyyət müddəti bu ilin iyul ayında başa çatacaq. Yeni səfirin yay aylarında fəaliyyətə başlayacağı gözlənilir.

Baydenin səfir namizədi Mark Libbi kimdir?

Nazir-müşaviri rütbəsinə sahib olan Mark Libbi hazırda Vaşinqtondakı Milli Müharibə Kollecində çalışır.

Libbi 2021-ci ilin iyun ayınadək ABŞ-ın Brüsseldə Avropa İttifaqı yanındakı missiyasında müvəqqəti işlər vəkili, missiya rəhbərinin müavini işləyib. O, həmçinin müxtəlif vaxtlarda Varşava, Nassau, Nikosiya və Bağdada siyasi müşavir olub.

Bundan əlavə, Vaşinqtonda Dövlət Departamentinin Əməliyyat Mərkəzində nəzarətçi və daha sonra Böhranların İdarə Edilməsi üzrə Direktor müavini vəzifəsində fəaliyyətini davam etdirib.

Mark Libbi daha sonra Mərkəzi Avropa İşləri Ofisində direktor müavini, Cənubi Avropa İşləri İdarəsinin direktoru olub.

Qeyd edək ki, səfir namizədi Massaçusetsdəki Tafts Universitetində və Parisdə Institut des Etudes Politiques-də bakalavr, Amerikada Milli Hərbi Kollecdə magistr təhsili alıb.

Polyak və fransız dillərini mükəmməl bilir.

## Paşinyan Ermənistanın ilk kosmik peykinin orbitə buraxıldığını dedi



***Ermənistan Respublikasının ilk kosmik peyki Yer planetinin orbitinə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin iclasında bildirib.

"2022-ci il mayın 25-də Yerevan vaxtı ilə saat 22:35-də ( Bakı vaxtı ilə eyni - red ) ABŞ-ın Kanar adalarındakı kosmik stansiyadan "Space X" kosmik gəmisi ilə Ermənistanın ilk kosmik peyki Yer orbitinə buraxılıb", - Paşinyan qeyd edib.

***Ağarza Elçinoğlu***

## "Yeni əməliyyatlarla cavab verəcəyik" - Ərdoğandan xəbərdarlıq

***"Əsgərlərimizin bir damla qanını yerdə qoymadıq və qoymayacağıq. Bu xain hücumlara yeni əməliyyatlarla cavab verməyə davam edəcəyik".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, basketbol üzrə Avropa Liqasının çempionu "Anadolu Efes" klubunun menecerlərini, texniki komitəsini və idmançılarını qəbul edərkən bildirib.

Dövlət başçısı İraqın şimalında keçirilən "Pəncə-Qılıf" əməliyyatında şəhid olan beş əsgərə Allahdan rəhmət diləyib.

Qeyd edək ki, dünən PKK terrorçuları ilə əməliyyat bölgəsində baş verən qarşıdurmada beş türk əsgəri şəhid olub, iki əsgər isə yaralanıb.

# BMT nüvə təhlükəsinə görə təcili iclas keçirəcək

***BMT Təhlükəsizlik Şurası cümə axşamı ABŞ-ın təklif etdiyi ballistik raket buraxılışlarına görə Şimali Koreyaya qarşı sanksiyaların artırılmasını nəzərdə tutan qətnamə layihəsinə baxacaq.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, qətnamə layihəsi Şimali Koreyanın raket və nüvə proqramlarının inkişafına təsir göstərməli olan əlavə məhdudiyyətləri nəzərdə tutub.

Bundan əlavə, ballistik raketlərin buraxılmasına və qanadlı raketlərin, eləcə də nüvə silahının çatdırılması üçün bütün digər vasitələrin sınaqlarına qoyulan qadağanın uzadılması təklif edilib.



Təhlükəsizlik Şurasının iclası günortadan sonra baş tutacaq və KXDR-ə xam neft və neft məhsullarının ixracının azaldılması da müzakirə ediləcək.

Xəbər verdiyimiz kimi, Şimali Koreya çərşənbə günü Yaponiya dənizinə doğru biri qitələrarası olmaqla dörd ballistik raket atıb. Bundan sonra Cənubi Koreyanın xarici işlər nazirləri Pak Çin və ABŞ Entoni Blinken telefon danışığı zamanı BMT Təhlükəsizlik Şurasında Şimali Koreyanın raket buraxılışları ilə bağlı yeni qətnamənin nəzərdən keçirilməsinə başlamaq üçün "yaxından əməkdaşlıq etmək" barədə razılığa gəliblər.

Şimali Koreyanın yeni nüvə sınağına hazırlığı ilə bağlı Cənubi Koreyada da narahatlıq var.

***Aynurə Xudaverdiyeva***

# Rusiyanın 1 315 tankı məhv edilib



***Ukrayna Rusiyanın hərbi itkilərini açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının "Facebook" səhifəsində bildirilib. Qeyd olunub ki, fevralın 24-dən bu gün səhər saatlarına qədər Rusiya Ordusunun 1 315 tankı, 3 235 zirehli döyüş maşını, 617 artilleriya sistemi, 201 reaktiv yaylım atəşi sistemi, 93 havadan müdafiə sistemi, 206 hərbi təyyarəsi, 170 helikopteri, 2 225 avtomobil texnikası və yanacaq çəni, 13 gəmi/kateri, 502 dronu, 47 xüsusi avadanlığı, 114 qanadlı raketi məhv edilib.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı Rusiya tərəfinin təxminən 29 600-ə qədər canlı qüvvəsini itirdiyini bəyan edib.

# Hindistanda terrorçular jurnalisti evində güllələdi

***Hindistanın şimalındakı Cammu və Kəşmir birliyinin ərazisinə silahlı hücum olub.***

"Unikal" "İzvestiya"ya istinadən xəbər verir ki, hücum nəticəsində teleaparıcı Amrin Bhat ölüb.

Hüquq-mühafizə orqanları əməkdaşlarının məlumatına görə, terrorçu dəstə yerli sakin Amrin Bhatı evində güllələyiblər. Xəstəxanaya çatdırılan qadın aldığı xəsarətlərdən dünyasını dəyişib. Onun 10 yaşlı qardaşı oğlu Fərhan Zubair qolundan güllə yarası alıb.



İlkin məlumatlara görə, atəş açan üç şəxs olub və onların hamısı "Ləşkər-e-Taibə" terror qruplaşmasına aid olub.

***Ağarza Elçinoğlu***

## Rusiya Zəngəzur ermənilərinə yardım edəcək

***Rusiya Zəngəzurda yaşayan ermənilərə yardım edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə mayın 26-da Rusiyanın İrəvandakı səfiri Sergey Kopırkin Zəngəzurun qubernatoru Robert Qukasyan və Kapan şəhərinin meri Gevorq Parsyanla görüşündə deyib.

Rusiya səfirliyinin mətbuat xidmətindən verilən məlumatda qeyd olunub ki, Moskva Qarabağa yaxın ərazidə yaşayan Zəngəzur ermənilərinə humanitar təşəbbüslərindən əl çəkmir.

Bundan başqa, səfir əlavə edib ki, Rusiya Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına hər cür töhfə verməyə hazırdır. O cümlədən, Rusiya hökumətinin İrəvan və Bakının dövlətlərarası sərhəddə sülh şəraitində birgə fəaliyyətini alqışladığı vurğulanıb.

## "Yeni uçurumun kənarındayıq" - Erməni polkovnik

***Bu gün ermənilər uçurumun kənarındadır, çünki onlar irəli baxmaq əvəzinə həmişə geriyə baxır.***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Silahlı Qüvvələrin polkovniki Senor Hasratyan deyib.

"Ermənilər bu gün yeni uçurumun kənarındadır, çünki irəliyə baxmaq əvəzinə həmişə geriyə baxır. Çünki bizdən fərqli olaraq dünənin pisini yox, yaxşısını görməyə üstünlük verirlər", - Hasratyan bildirib.

***Ağarza Elçinoğlu***

## Ukraynada müharibədə 240 uşaq həlak olub

***Rusiyanın Ukraynaya hücumu nəticəsində fevralın 24-dən bu günə qədər 240 uşaq həlak olub.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Prokurorluğu "Telegram" kanalında məlumat yayıb.

Bildirilib ki, davam edən müharibədə indiyədək 436 uşaq yaralanıb.

Baş Prokurorluğun məlumatına görə, ən çox itkilər Kiyev, Xarkov, Donetsk, Çerniqov, Nikolayev, Luqansk, Zaporojye, Jitomir, Xerson və Sumidə qeydə alınıb.

"Rusiya qüvvələrinin hava və artilleriya zərbələri nəticəsində 1883 təhsil müəssisəsi zərər görüb, onlardan 178-i tamamilə dağıdılıb", - qeyd olunub.

# Nənəsinin ona görə narahat olduğu ULDUZ




***"Mançester Siti"nin ulduzu Kevin de Bruyne körpə vaxtlarından köçəri həyat tərzi sürüb. Onun atası Herviq neft sənayesində çalışdığı üçün ailə tez-tez bir şəhərdən digərinə köçməli olub. Çoxsaylı səfərlərə kiçik yaşlarında vərdiş etməli olan balaca Kevin tez-tez anası Ananın İngiltərədəki ailəsinin yanına da yollanıb.***

De Bruyne artıq 4 yaşından öz doğma şəhərində futbol oynamağa başlayıb. Balaca uşaqda olan istedad onu tezliklə "KVV Drongen"un heyətinə daşıyıb. Onun bu yaşdakı bacarıqları da ətrafdakıların diqqətini özünə çəkib. Cəmi iki il bu klubda qaldıqdan sonra "Gent"in akademiyasına cəlb olunub. Bu dövrdə balaca Kevin yalnız istirahət günlərində ailəsini görmək imkanı qazanıb. Bu üzdən də kiçik futbolçu öz qayğısına qalmağın yollarını tapmağı öyrənib.

Onu "Gent"də yeni istedadlardan hesab edirdilər. Belə oyunçular gələcəkdə Belçikanın dünya futbolundakı hörmətini bərpa etməli idi. Akademiyada olduğu dövrdə onun tək qalmasından narahat olan nənəsi də futbolçunu tez-tez ziyarət edirdi.

Hələ Gentdə olduğu vaxt De Bruyne sevimli klubunun adını açıqlayıb. O, hazırda formasını geyindiyi "Mançester Siti"nin əsas rəqibi "Liverpul"un adını çəkərək mersisaydlılar sevimli klubu adlandırıb.

14 yaşında "Gent"i "Genk"ə dəyişən yarımmüdafiəçi cəmi üç il sonra əsas komandaya keçirilib. Buradakı debütünü iki il gözləyən futbolçu 2009-cu ilin mayında ilk matçına çıxıb.

Artıq 2009/10 mövsümündə komandanın aparıcı üzvünə çevrilən 18 yaşlı gənc ilk qolunu da vurmağa macal tapıb. Növbəti mövsümdə 5 qol və 16 assistlə çempionluqda pay sahibi olaraq qızıl medalı boynundan asıb. Növbəti 1,5 mövsümü də "Genk"in uğurları üçün çalışan Kevin İngiltərə Premyer Liqasında oynamağa qərar verib.

2012-ci ilin yanvarında "Çelsi" onunla 5,5 illik anlaşmaya imza atıb. Müqavilənin dəyəri 7 milyon funt sterlinq olub. London klubunda yalnız yarım ildən sonra debüt edən yarımmüdafiəçi Almaniya "Verder"inə icarəyə göndərilib.

Bremen klubundakı 2012/13 mövsümünü yaxşı keçirən De Bruynenin yenidən icarəyə veriləcəyi gözlənilsə də, "Çelsi"nin o vaxtkı baş məşqçisi Joze Mourinyo yarımmüdafiəçini əsas heyət üzvü olacağına inandırıb. Mövsümöncəsi yoxlama görüşlərinin birində qol da vuran zədələnib. Yarım mövsüm London klubunda qaldıqdan sonra 18 milyon funt sterlinqə "Volfsburq"a satılıb.

Bundesliqa klubundakı ilyarım uğurlu alınıb. Avropa Liqasında ilk qoluna imza atan futbolçu 2014/15 mövsümündə çempionatın gümüş medalını, ölkə kubokunu, sonda Almaniyada ilin futbolçusu adını qazanıb. 2015/16 mövsümü "Bavariya" üzərində Superkubok qələbəsi ilə başlayıb. Kevinin parlaq oyunu bütün Avropa klublarının diqqətini cəlb edib.

2015-ci ilin avqustunda "Mançester Siti" belçikalını heyətinə qatıb. Onun transferi 55 milyon avroya reallaşıb. Bu da həmin vaxt üçün klubun rekord transferi olub. Artıq ilk oyunlardan parlaq istedadını nümayiş etdirən Kevin "Qızıl top" üçün namizədlər siyahısına düşüb. Mançester təmsilçisində üç çempionluq, bir kubok, beş Liqa kuboku, bir Superkubok qazanan Kevin Çempionlar Liqasının finalçısı olub. Yeddi ildə saysız-hesabsız fərdi mükafatlar da qazanan yarımmüdafiəçi müxtəlif rəmzi komandalara da seçilib. Vaxtilə nənəsinin onun üçün narahat olduğu balaca indi dünyanın ən yaxşı oyun qurucusu və qol assistenti adlandıranlar çoxluq təşkil edir.

Varidatı 30 milyon dollarla dəyərləndirilən belçikalının illik maaşı 19 milyon təşkil edir. O, "Nike", "EA Sports" və "Orange" kimi idman brendləri ilə sponsorluq müqavilələrinə malikdir(apasport).

# Mourinyo özünü və Trapattonini fərqləndirdi

***"Torino" üzərində 3:0 hesablı qələbədən sonra futbolçulara dedim ki, biz etməli olduğumuzu etdik və Avropa Liqasına vəsiqə qazandıq. Bu gün isə meydana işləmək üçün deyil, tarix yazmaq üçün çıxdıq və bunu bacardıq".***



Apasport.az saytının məlumatına görə, bunu "Roma"nın baş məşqçisi Joze Mourinyo deyib.

Konfrans Liqasının ilk qalibi kimi tarixə düşən İtaliya klubunun çalışdırıcısı "Feyenoord" üzərindəki final qələbəsini dəyərləndirib: "Biz lap əvvəldən bilirdik ki, Konfrans Liqasının qalibi olacağıq. Getdikcə oyunlar daha çətin olurdu. Qalib adına "Marsel" və "Feyenoord" kimi güclü komandalar da iddia edirdi. Amma biz mükafata köklənmişdik və bu da bizə çempionatdakı xallar bahasına başa gəldi".

Mourinyo gələcək karyerasından da danışıb: "Mən "Roma"da qalıram. Nə deyirlər-desinlər, bununla bağlı heç bir şübhə yoxdur. Mən Romada qalmaq istəyirəm. Klubun gözəl və təmiz sahibləri var, bu da tarix də davam etməlidir. Biz bu layihənin üzərində işləməyə davam etməli, növbəti mövsüm üçün inkişaf planını müəyyənləşdirməliyik. Bütün beynəlxalq titullar vacibdir. Yalnız mən və Covanni Trapattoni avrokubokları 5 dəfə qazanıb. Özümü qocatəhər hiss edirəm. Mən 2003-cü, 2017-ci illərdə də kubok qazanmışam. İndi qələbə və öz çimərliyimdə məzuniyyətdən həzz almaq istəyirəm".




# "Çelsi" De Liqt üçün hərəkətə keçdi

***"Çelsi" "Yuventus"un əsas müdafiəçisi Matteyis de Liqt üçün hərəkətə keçib.***

Bu barədə "Calciomercato" məlumat yayıb. Klub onu yayda komandadan ayrılacaq Antonio Rüdiger və Andreas Kristensenin əvəzedicisi kimi görür. Tomas Tuhel niderlandlı müdafiəçini komandasında görmək istəyir. Tərəfərin artıq danışıqlara başladığı bildirilib.

Qeyd edək ki, daha əvvəl 22 yaşlı futbolçunun müqaviləsini 2026-cı ilin yayına qədər uzatmağa yaxın olduğu bildirilirdi.

# Benzema mövsümün ən yaxşısı seçildi

***"Real"da 2021/22 mövsümünün ən yaxşı futbolçusunun adına aydınlıq gəlib.***

Bu, Kərim Benzemadır. Bu barədə İspaniya klubunun rəsmi saytı məlumat yayıb.

Benzema isə uğurunu belə şərh edib: "Mükafatla fəxr edirəm. Qol vurmaq və kuboklar baxımından mənim üçün əla mövsüm oldu".

Qeyd edək ki, 34 yaşlı Benzema 2021/22 mövsümündə bütün yarışlarda 45 oyunda 44 qol vurub və 15 qolun ötürməsini verib.

# "Traktor"dan əzmkar qələbə

***İran çempionatında 29-cu turun oyunları keçirilib.***

Cənubi Azərbaycan təmsilçisi "Traktor" doğma meydanda "Fajr Sepasi" ilə qarşılaşıb. Təbriz klubu bu oyundan əzmkar qələbə ilə ayrılıblar - 2:1. "Traktorçular"ın qollarını Məhəmməd Abbaszadə (24) və Saman Nəriman Cahan (39) vurub.

"Traktor" 29 turdan sonra 28 xalla 16 kollektiv arasında 13-cü pillədə qərarlaşıb.

# "Qarabağ" Konfrans Liqasının ən yaxşıları sırasında

***"Qarabağ" Konfrans Liqasının 2021/22 mövsümündə ən yaxşı statistik göstəricilərə malik komandalar arasına düşməyi bacarıb***

Qol.az xəbər verir ki, Ağdam təmsilçisi final matçından sonra açıqlanan nəticələrə əsasən, topa nəzarətə görə turnirin ən güclülərindədir. "Qarabağ" 59 faizlik göstərici ilə 2-cidir. Komanda yalnız AZ-dən (59,9 faiz) geri qalır. Həmçinin "Qarabağ" dəqiq ötürmələrin sayına görə ilk "5-liy"ə düşüb. "Qarabağ" əsas mərhələdə keçirdiyi 8 qarşılaşmada 83,9 faiz dəqiqliklə oynayıb. Qurban Qurbanovun kollektivi ən çox küncdən zərbə yerinə yetirən komandalardan biridir - 66.. Turnirin qalibi "Roma" 75, digər finalçı "Feyenoord" isə "Qarabağ"la birlikdə 66 dəfə küncdən zərbə yerinə yetirib. Qeyd edək ki, "Qarabağ" pley-off mərhələsində "Marsel"ə uduzaraq (1:3, 0:3) mübarizəni dayandırmışdı.